QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 168 (5640) **7 sentyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Xorvatiya və Azərbaycan strateji tərəfdaşlardır"

*Ilham Əliyev: "Strateji tərəfdaşlıq əlaqələrimiz genişlənir, güclənir"*



Səh 2

Prezident İlham Əliyev Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviç ilə görüşüb



4

Prezident İlham Əliyev: Əgər dünyada beynəlxalq hüquq və ədalət pozulmasa, müharibə də olmayacaq



5

"Yeni Şafak": PKK terrorçuları Ermənistanın dəstəyi ilə Türkiyə ərazisinə keçirilir



6

Nəsiminin türk divanının əlyazma nüsxəsinin surəti Bakıya gətirilib



6

Bəhruz Quliyev: "Azərbaycan idmançıları beynəlxalq arenada ölkəmizi layiqincə təmsil edirlər"



7

AŞPA-nın payız sessiyasının gündəliyi açıqlanıb



9

13

Paşinyan-Koçaryan üzərində çalxalanan erməni mətbuatı



14

AXCP-nin "REAL"-a qarşı planları nədir?



16

Azərbaycanın güləşçisi III Dünya Köçəri Oyunlarında qızıl medal qazanıb



# "Xorvatiya və Azərbaycan strateji tərəfdaşlardır"

## *İlham Əliyev: "Strateji tərəfdaşlıq əlaqələrimiz genişlənir, güclənir"*



***Xorvatiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 6-da rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.***

Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb. Azərbaycanın və Xorvatiyanın dövlət himnləri səsləndirilib. Daha sonra Xorvatiyanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Kolinda Qrabar-Kitaroviçə təqdim olunub.

Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə təkbətək görüşü olub. Görüşdə Azərbaycan ilə Xorvatiya arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı. Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olundu. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər





ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin iştirakı ilə Azərbaycan-Xorvatiya sənədlərinin imzalanması mərasimi olub. "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Xorvatiya Respublikasının Mədəniyyət Nazirliyi arasında 2018-ci, 2019-cu və 2020-ci illər üzrə mədəni əməkdaşlığa dair Proqram"ı Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Xorvatiya Respublikasının mədəniyyət naziri xanım Nina Obulyen Korjinek imzaladılar.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Xorvatiya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Xorvatiya Respublikasındakı səfiri Fəxrəddin Qurbanov və Xorvatiya Respublikasının Kənd Təsərrüfatı Nazirliyində dövlət katibi xanım Mariya Vuçikoviç imzaladılar.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Xorvatiya Prezidenti Kolinda Qrabar-Kitaroviç bəyanatla çıxış edib.

Prezident Kolinda Qrabar-Kitaroviçin bəyanatı:

"Biz bir-birimizi Avropa İttifaqı çərçivəsində də dəstəkləyirik. Biz, Azərbaycanın Avropa İttifaqı ilə ikitərəfli qaydada münasibətlərinin inkişaf etdirilməsi ilə bağlı mövqeyini yüksək dəyərləndiririk. İnanıram ki, biz müdafiə sahəsində də əməkdaşlığımızı inkişaf etdirəcəyik. Çünki biz, 2013-cü ildə müdafiə sahəsində də əməkdaşlıqla bağlı anlaşma memorandumu imzaladıq. Bu baxımdan zabitlərimiz və hərbçilərimiz, əsgərlərimiz bir sıra müxtəlif hərbi kurslarda, hərbi məktəblərdə öz təhsilini artıra bilərlər.

Biz, həmçinin iqtisadi əməkdaşlığa da toxunduq. İnanıram ki, biz bunu inkişaf etdirə bilərik. Çünki bu sahədə hazırkı vəziyyət hələ o qədər də istənilən səviyyədə deyil. Bildiyiniz kimi, iqtisadi əməkdaşlıqla bağlı Azərbaycan ilə Xorvatiya arasında qarşılıqlı komissiya öz işini aparır. İşin əsas məqsədi ikitərəfli layihələr irəli sürməkdən, onları həyata keçirməkdən ibarətdir. Biz, həmçinin Bakıda bu komissiyanın son iclasını keçirmişik və istərdik ki, növbəti sessiya yaxın zamanlarda öz işinə başlasın. Təbii ki, bu çərçivədə əczaçılıq və enerji sahəsinə xüsusi diqqət yetirməliyik. İnanıram ki, Xorvatiya digər sahələrdə də öz təcrübəsi ilə bölüşə bilər. Bu gün biz, bu əməkdaşlığın, həmçinin əczaçılıq sahəsində də genişləndirilməsi haqqında danışdıq. Prezident bununla bağlı qeyd etdi ki, şirkətlərimiz tərəfindən Xorvatiya ilə Azərbaycan arasında birgə müəssisə təsis edilə bilər. Bunun sayəsində bizim əczaçılıq şirkətləri üçün fürsət yaranacaq ki, onlar Mərkəzi Asiya və ümumiyyətlə, Xəzər hövzəsi regionuna çıxış əldə etsinlər, o cümlədən Azərbaycanda da fəaliyyət göstərsinlər. Təbii ki, bu da bizim aramızda ticari münasibətləri də inkişaf etdirəcəkdir.

Eyni zamanda, gəmiqayırma sahəsində də vacib işlər var. Bizim 6 gəmi ilə bağlı müzakirələrimiz oldu. Ümidvaram ki, bununla bağlı danışıqlarımız davam etdiriləcəkdir və Azərbaycan ilə biznes potensialını tam şəkildə istifadə edə biləcəyik. Həmçinin biz kənd təsərrüfatı, informasiya texnologiyaları, yeyinti məhsullarının emalı sahələrində də əməkdaşlığı inkişaf etdirməyə ümid edirik.

Xorvatiya gələcəkdə bu regionun daha inkişaf etmiş qovşağına çevriləcəkdir. Bunun üçün biz istərdik ki, Azərbaycanın reallaşdırdığı və bir çox ölkələrin ərazisindən keçən qaz boru kəməri layihəsində də iştirak edək.

Ardı Səh. 3

# "Xorvatiya və Azərbaycan strateji tərəfdaşlardır"

## İlham Əliyev: "Strateji tərəfdaşlıq əlaqələrimiz genişlənir, güclənir"





Əvvəli Səh. 2

Bildiyiniz kimi, Adriatik dənizinin sahilində bu layihə çərçivəsində boru kəməri çəkilir. Biz, həmçinin Xorvatiyanın Krk adasında maye qaz terminalının tikintisində maraqlıyıq. Bu, Azərbaycanın enerji bazarlarına çıxışını daha da genişləndirəcək.

O ki qaldı, Avropa İttifaqındakı fəaliyyətimizə, Xorvatiya güclü iradəyə əsaslanaraq Cənub və Mərkəzi Avropa ölkələri ilə Xəzər hövzəsi arasında daha geniş əməkdaşlığın inkişaf etdirilməsinə tərəfdardır. Azərbaycan əslində, bu təşəbbüsü dəstəkləyibdir. Bu təşəbbüsə digər tərəfdaşlar da, maraqlı dövlətlər də qoşula bilər. Bu təşəbbüsdə dünyanın müxtəlif şirkətləri iştirak edə bilər. Buxarestdə 2018-ci ilin sentyabrında bununla bağlı keçiriləcək Zirvə görüşündə hesab edirik ki, mühüm addımlar atılacaq və bu, çox yüksək səviyyədə, siyasi səviyyədə ortaya qoyulan bir iradə olacaqdır. Bu da bizim spesifik dialoqumuzun əsasını təşkil edir.

Mən, eyni zamanda, bildirmək istəyirəm ki, Azərbaycan NATO-nun mühüm tərəfdaşıdır. Sizin NATO-ya verdiyiniz töhfəniz vacibdir. Bildiyiniz kimi, Azərbaycan da bizim ölkə kimi müxtəlif yerlərdə təhlükəsizlik məsələlərinin həllinə, sabitliyin qorunmasına töhfə verir və bunda maraqlıdır. Burada söhbət, xüsusən Avropanın cənub bölgəsindən gedir. Siz, həmçinin Əfqanıstanda aparılan əməliyyatlara da qatılmısınız. Təhlükəsizliyə və sabitliyə verdiyiniz davamlı dəstəyə və töhfəyə görə mən Sizə təşəkkürümü bildirirəm."

Prezident İlham Əliyevin bəyanatı:

"Çox sağ olun, hörmətli xanım Prezident. Əziz dostlar.

İlk növbədə, xanım Prezident, məni Xorvatiyaya dəvət etdiyinizə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Mən, Siz qeyd etdiyiniz kimi, Xorvatiyada özümü evimdəki kimi hiss edirəm. Sizin gözəl ölkənizə yenidən səfər etmək mənim üçün çox xoşdur.

Bizim siyasi dialoqumuz çox fəal aparılır. Xanım Prezident qeyd etdiyi kimi, biz tez-tez görüşürük. İki il bundan əvvəl xanım Prezident Azərbaycanda rəsmi səfərdə idi. Səfər çox uğurlu keçmişdir və çox gözəl nəticələri olmuşdur. Keçən il biz bir beynəlxalq konfrans çərçivəsində görüşmüşdük. Bu gün də mən Xorvatiyadayam. Bu, göstərir ki, siyasi dialoq çox fəaldır. Bu, onu göstərir ki, Xorvatiya və Azərbaycan doğrudan da strateji tərəfdaşlardır. Xanım Prezidentin qeyd etdiyi kimi, beş il bundan əvvəl Zaqrebdə bu barədə Bəyannamə imzalanmışdır.

Strateji tərəfdaşlıq əlaqələrimiz genişlənir, güclənir. Bu gün bir çox məsələlər müzakirə olundu. Xanım Prezident bu barədə məlumat verdi. Öz tərəfimdən qeyd edim ki, biz Xorvatiya ilə daha böyük həcmdə ticarət əməliyyatları aparmaq istəyirik. Ticarət dövriyyəsinin nə həcmi, nə də strukturu bizi qane edə bilməz. Hesab edirəm ki, hökumətlərarası komissiya bu məsələ ilə bağlı çox ciddi fəaliyyət göstərəcək. Yaxın zamanlarda həm ticarət dövriyyəsinin artırılması, eyni zamanda, müştərək investisiya layihələri də icra edilə bilər.

Əlbəttə ki, bizim energetika sahəsində əməkdaşlığımız çox önəmlidir. Azərbaycan Cənub Qaz Dəhlizinin icrası ilə çox fəal məşğuldur, bu nəhəng layihənin təşəbbüskarı olmuşdur. Bu layihə 7 ölkəni birləşdirir, Bakıdan Avropaya qədər 3500 kilometr uzunluğunda qaz kəmərinin çəkilişini və Azərbaycanın nəhəng "Şahdəniz" yatağının işlənilməsini nəzərdə tutur. Dörd seqmentdən ibarət olan bu layihə uğurla icra edilir. Bu ilin mayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. İyun ayında isə biz TANAP layihəsinin açılışını qeyd etdik. Beləliklə, əminəm ki, yaxın iki il ərzində Azərbaycan qazı ilk dəfə olaraq Avropa məkanına çatdırılacaq. Beləliklə, Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə veriləcək və Azərbaycan öz qaz potensialını daha da böyük həcmdə dünyaya, Avropaya təqdim edə bilər.

Əlbəttə ki, Xorvatiya ilə bu sahədəki əməkdaşlıq çox önəmlidir. Bakıda dörd il ardıcıllıqla Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantıları keçirilir. Xorvatiya bu toplantılarda yüksək səviyyədə təmsil olunur. Bizim aramızda bu məsələ ilə bağlı memorandum da imzalanmışdır. İon-Adriatik qaz kəmərinin tikintisi ilə bağlı çox əhəmiyyətli danışıqlar aparılmaqdadır.

Azərbaycanın qaz ehtiyatları çox böyükdür. Təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bu, onu göstərir ki, biz, qaz hasilatının artırılması ilə bağlı əlavə addımlar atacağıq və ixrac coğrafiyasını da genişləndirmək fikrindəyik.

Avropa İttifaqı-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Bu ilin iyul ayında Brüsseldə Avropa İttifaqı ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" sənədi imzalanmışdır. Bu, yeni Sazişin imzalanması üçün çox önəmli bir addımdır. Hazırda Avropa İttifaqı və Azərbaycan yeni Saziş üzərində işləyir. İşlər yaxşı gedir və Xorvatiya həmişə bizim Avropa İttifaqı ilə əməkdaşlığımızı dəstəkləmiş və öz dəyərli töhfəsini vermişdir. Avropa İttifaqı ilə bizim əlaqələrimiz bir çox sahələri əhatə edir, siyasi islahatlar, iqtisadi əməkdaşlıq, enerji əməkdaşlığı və nəqliyyat sahəsindəki əməkdaşlıq. Azərbaycan bu sahədə də öz töhfəsini verir.

Keçən ilin oktyabr ayında Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı olmuşdur. Bu yol nəinki Azərbaycanı Türkiyə ilə birləşdirir, Asiyanı Avropa ilə birləşdirən yeni yoldur, yeni nəqliyyat damarıdır, ən qısa yoldur. Bu yol artıq fəaliyyətdədir. Göndərilən yüklərin həcmi hər gün artır və Azərbaycan Avrasiyanın nəqliyyat xəritəsinə də öz dəyərli töhfəsini vermişdir. Ümid edirəm ki, xorvatiyalı tərəfdaşlarımız bu yoldan da istifadə edə biləcəklər. Çünki bu, nəqliyyat və iqtisadi sahələrdə çox gözəl layihədir.

Azərbaycanın NATO ilə əməkdaşlığı yüksək səviyyədədir. Mənim NATO-ya çoxsaylı rəsmi səfərlərim olmuşdur. Yaxın keçmişdə Azərbaycan Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasındakı öz hərbi kontingentinin sayının artırılması ilə bağlı qərar qəbul etmişdir. Artıq 120 azərbaycanlı hərbçi Əfqanıstanda xidmət göstərir. Eyni zamanda, "Qətiyyətli dəstək" missiyasının təmin olunması üçün Azərbaycan öz hava məkanını və nəqliyyat infrastrukturunu təqdim edib. Bu da missiyanın uğurla davam etməsi üçün çox önəmli məsələdir.

Bir sözlə, həm Avratlantik strukturlarla bizim əlaqələrimiz, həm də ikitərəfli müstəvidə aparılan işlər onu göstərir ki, Xorvatiya və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlardır. Bu gün xanım Prezident qeyd etdiyi kimi, bir çox sahələrdə gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Əczaçılıq, kənd təsərrüfatı, kənd təsərrüfatı məhsullarının emalı, gəmiqayırma sahələrində bütün istiqamətlər üzrə, əminəm ki, yaxşı nəticələr olacaq. Müvafiq göstərişlər verildi. Əminəm ki, hökumətlərarası müştərək komissiya bütün bu göstərişləri vaxtında və yüksək səviyyədə icra edəcək."

## Prezident İlham Əliyev Zaqrebdə "Xorvatiya Qurbanlarının Səsi-Ağrı Divarı" abidəsini ziyarət edib



Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zaqrebdə "Xorvatiya Qurbanlarının Səsi-Ağrı Divarı" abidəsini ziyarət edib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı abidənin önünə əklil qoydu, Xorvatiya uğrunda canlarından keçmiş insanların xatirəsini ehtiramla yad edib.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

7 sentyabr 2018-ci il

# "Xorvatiya Azərbaycanla strateji tərəfdaşlığa böyük önəm verir"

## *Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiyanın Baş naziri Andrey Plenkoviç ilə işçi nahar edib*





***Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə işçi nahar edib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Xorvatiyanın Baş naziri Andrey Plenkoviç Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb. Azərbaycan Prezidenti dövlət iqamətgahının fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.***

Prezident İlham Əliyev və Baş nazir Andrey Plenkoviç birgə foto çəkdiriblər.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyi, siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. İqtisadi sahədə əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb. Həmçinin kənd təsərrüfatı, əczaçılıq, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Söhbət zamanı ölkəmizin Avropa İttifaqı ilə uğurlu əməkdaşlıq etdiyi bildirildi. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, Cənub Qaz Dəhlizinin əhəmiyyəti qeyd olunub, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sonra Azərbaycan Prezidenti və Xorvatiyanın Baş naziri birgə işçi nahar ediblər.



# Prezident İlham Əliyev Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviç ilə görüşüb



***Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiya Respublikası parlamentinin sədri Qordan Yandrokoviç ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, parlament sədri Qordan Yandrokoviç Prezident İlham Əliyevi qarşıladı. Azərbaycan Prezidenti İlham Əliyev və Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviç birgə foto çəkdirdilər.***

Görüşdə Azərbaycan Prezidentinin Xorvatiyaya rəsmi səfərinin uğurlu keçdiyi, səfər çərçivəsində səmərəli müzakirələrin aparıldığı qeyd edildi. Azərbaycan ilə Xorvatiya arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişaf etdiyi, siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. Ticarət dövriyyəsinin artırılmasının vacibliyi qeyd olundu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, Cənub Qaz Dəhlizinin əhəmiyyəti xüsusi vurğulandı. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsində xüsusi rolunun olduğu bildirildi.

Azərbaycanın Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasında iştirakının önəmi qeyd olundu, ölkəmizin Avropa İttifaqı ilə uğurlu əməkdaşlıq etdiyi bildirildi. Azərbaycan ilə Xorvatiya arasında nəqliyyat, əczaçılıq, turizm sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğu vurğulandı.

Söhbət zamanı parlamentlərarası əlaqələrin genişləndirilməsinin vacibliyi qeyd edildi, dostluq qruplarının bu işə mühüm töhfə verə biləcəyi bildirildi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev: Əgər dünyada beynəlxalq hüquq və ədalət pozulmasa, müharibə də olmayacaq

***İqtisadi müstəqillik bizə imkan verir ki, beynəlxalq məsələlərin həllində, ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatında öz mövqeyimizi müdafiə edək. Bizim mövqeyimiz ədalətlidir, beynəlxalq hüquqa və ədalətə söykənir. Bu iki anlayış beynəlxalq münasibətlər üçün də xüsusi əhəmiyyət kəsb edir. Harada ki, beynəlxalq hüquq, ədalət pozulur, orada toqquşmalar da, müharibələr də, gərginlik də olacaq. Əgər dünyada beynəlxalq hüquq və ədalət pozulmasa, müharibə də olmayacaq.***




AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 66-cı kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2014-cü il noyabrın 13-də Bakıda keçirilən Azərbaycan-İran biznes-forumundakı nitqində söyləyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 66-cı kitabındakı materiallar 2014-cü ilin noyabrından 2015-ci ilin yanvarınadək olan dövrü əhatə edir.

Kitab Prezident İlham Əliyevin və Azərbaycanda rəsmi səfərdə olan İran Prezidenti Həsən Ruhaninin mətbuata bəyanatları ilə başlayır. Bu cilddə dövlətimizin başçısının Bakıya işgüzar səfərə gəlmiş Əfqanıstan Prezidenti ilə görüşünə, habelə Koreya Respublikası Baş nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsinə, eləcə də Türkiyə Respublikasına dövlət səfərinə, Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında iştirakına, imzalanan sənədlərə, Almaniyaya işgüzar səfərinə, bu ölkələrin rəhbərləri ilə apardığı danışıqlara, mətbuata bəyanatlara dair materiallar toplanıb.

Nəşrdə Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirlikləri, İordaniya, Böyük Britaniya, Türkiyə, Serbiya, Yaponiya və digər dövlətlərin, Avropa Komissiyasının, Beynəlxalq Telekommunikasiya İttifaqının, Beynəlxalq Olimpiya və Avropa Olimpiya komitələrinin, Beynəlxalq Atçılıq Federasiyasının, “BBC Global News”un, BP şirkətinin ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini, xarici ölkələrin Azərbaycanda təyin olunmuş səfirlərini qəbul etməsinə dair informasiyalar da yer alıb.

Azərbaycan Prezidentinin paytaxtımızda keçirilən bir sıra beynəlxalq tədbirlərdə söylədiyi nitqlərin, “Euronews” və “Rossiya-24” telekanallarına müsahibələrinin mətnləri ilə 66-cı kitabda tanış olmaq mümkündür.

Nəşrdə, həmçinin dövlətimizin başçısının Uşaqların III Ümumrespublika Forumunun, “Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)” mövzusunda beynəlxalq konfransın, “Beynəlxalq Antikorrupsiya Akademiyasına üzv dövlətlərin assambleyası”nın III sessiyasının, “XXI əsrdə sənayeləşmə: sənaye siyasətində əsas trendlər, müasir yanaşma və təcrübələr” mövzusunda beynəlxalq konfransın, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin təhsil nazirlərinin III görüşünün, “Bakutel-2014” XX Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisi və konfransının, Azərbaycan Alimlərinin I Qurultayının iştirakçılarına məktubları, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, Azərbaycanın Pravoslav xristian icmasına İsa Peyğəmbərin mübarək mövludu - müqəddəs Milad bayramı münasibətilə təbrikləri, digər müraciətləri və məktubları toplanıb.

Kitabda Prezident İlham Əliyevin Heydər məscidinin açılışı mərasimində nitqi, bu tədbirdə iştirak etmək üçün ölkəmizə gəlmiş Rusiya Federasiyası Şimali Qafqaz respublikalarının din xadimləri ilə görüşünə dair informasiyalar da yer alıb. Bu kitabın əhatə etdiyi dövrün materiallarında “Bakı-2015” birinci Avropa Oyunlarına yüksək səviyyədə hazırlıqla bağlı görülən işlər haqqında informasiyalar əldə etmək olar.

Çoxcildliyin bu kitabına Prezident İlham Əliyevin məcburi köçkünlər üçün Gəncədə salınan yeni qəsəbənin açılışı mərasimində iştirakına, Sumqayıt şəhərinə, Şəmkir, Sabirabad rayonlarına səfərlərinə, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Sabirabad regional “ASAN xidmət” mərkəzinin, “ASAN Könüllüləri”nin I Ümumrespublika Forumunun açılışı mərasimlərində iştirakına, bölgələrdə ictimaiyyət nümayəndələri ilə görüşlərinə, infrastruktur obyektlərinin, sənaye və mədəniyyət müəssisələrinin təməlqoyma və açılış mərasimlərində iştirakına dair materiallar, Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında giriş və yekun nitqlərinin mətnləri daxil edilib. Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri də verilib. “Azərnəşr” tərəfindən buraxılan 66-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## Noyabr-dekabr aylarında iki ölkədə “Azərbaycan Ticarət Evi” açılacaq

Bu ilin noyabr-dekabr aylarında Polşanın paytaxtı Varşavada və Qazaxıstanın Aktau şəhərində “Azərbaycan Ticarət Evi”nin açılması nəzərdə tutulur.



AZƏRTAC xəbər verir ki, bu barədə AZPROMO-nun prezidenti vəzifəsini icra edən Yusif Abdullayev deyib. O qeyd edib ki, həmçinin ilin sonunda Monqolustan, Rusiya, Türkiyə, Qazaxıstan, Bolqarıstan, Çin, Almaniya, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinə ixrac missiyaları həyata keçiriləcək.

# Problemli aktivlərin əvəzində əldə edilmiş nəqliyyat vasitələrindən səmərəli istifadə məsələsi Nazirlər Kabinetində müzakirə olunub



***Sentyabrın 6-da Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun rəhbərliyi ilə aidiyyəti qurumların (İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Bakı Nəqliyyat Agentliyi, “Aqrarkredit” QSC, “Azərbaycan Sənaye Korporasiyası” ASC) rəhbərlərinin iştirakı ilə “Aqrarkredit” QSC tərəfindən Azərbaycan Beynəlxalq Bankından alınmış problemli aktivlərin (borcların) əvəzində əldə edilmiş nəqliyyat vasitələrindən səmərəli istifadə məsələsi müzakirə olunub.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyətinin dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı sağlamlaşdırılma tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 iyul tarixli 570 nömrəli Fərmanının icrasının təmin edilməsi istiqamətində müzakirələr aparılıb və aidiyyəti qurumların rəhbərlərinə konkret tapşırıqlar verilib.

# Mamuka Baxtadze: Azərbaycan ilə münasibətlərin daha da dərinləşməsi üçün birgə fəaliyyət planı hazırlanır



Bizə yaxın qonşu və dost ölkə olan Azərbaycana səfərim çox məhsuldar və hər iki tərəf üçün çox mühüm bir səfər oldu. Gürcüstan Baş nazirinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu sözləri Baş nazir Mamuka Baxtadze hökumətin sentyabrın 6-da keçirilən yüksək səviyyəli iclasında səsləndirib. Onun sözlərinə görə, Bakıda Azərbaycan ilə Gürcüstan arasında birgə iqtisadi layihələr və bu sahədə mövcud olan bəzi problemlər müzakirə edilib.

Baş nazir deyib: “Bilirsiniz ki, bizim ölkələrimiz arasında azad ticarət əlaqələri var. Amma bəzi çatışmazlıqlar da mövcuddur. Azərbaycan ilə azad ticarət rejimini genişləndirmək və xidmət sahəsində münasibətləri dərinləşdirmək bizim üçün vacibdir. Hər iki tərəf ticarət dövriyyəsini yaxın iki il ərzində 50-60 faiz artırmağı qarşıya məqsəd qoyub. Bu fakt ticarət dövriyyəmizin daha da genişləndirilməsinə yeni stimul verməlidir”.

M.Baxtadze, eyni zamanda, təhsil və mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb və Bakıda bu məsələnin də müzakirə mövzusu olduğunu bildirib.

Baş nazir yeni regional layihələrin, o cümlədən enerji sektoruna aid layihələrin bundan sonra da fəal şəkildə müzakirə olunacağını xüsusi qeyd edib. Bildirib ki, Bakıya səfəri çərçivəsində Avropa və Çin ilə olduğu kimi, Azərbaycanla da azad ticarət zonasının yaradılmasına dair müqavilənin daha effektiv olmasına təkan verəcək yeni birgə müəssisələrin yaradılması barədə razılıq əldə edilib.

“Münasibətlərimizin gələcəkdə daha da dərinləşməsinə dair birgə fəaliyyət planının hazırlanması barədə razılığa gəlmişik və bu istiqamətdə işlər davam edir”, - deyə Mamuka Baxtadze vurğulayıb.

# Naxçıvan brendi VI Çin-Avrasiya sərgisində nümayiş etdirilib




Çin Xalq Respublikasının Urumçi şəhərində keçirilən VI Çin-Avrasiya sərgisində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Babək “Sirab” Açıq Səhmdar Cəmiyyətində istehsal edilən 16 çeşiddə qazlı və qazsız mineral sular nümayiş olunub. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, sərgi çərçivəsində “Sirab” mineral suyunun Çinə ixracına dair həmin ölkənin şirkətlərinin rəsmiləri ilə işgüzar görüşlər keçirilib, əməkdaşlıq perspektivlərinə dair müzakirələr aparılıb.

Qeyd edək ki, avqustun 29-dan sentyabrın 3-dək Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə Çin Xalq Respublikasının Urumçi şəhərinə ixrac missiyası təşkil olunub. İxrac missiyası çərçivəsində avqustun 30-dan başlayaraq VI Çin-Avrasiya sərgisində “Made in Azerbaijan” vahid ölkə stendi altında ölkəmizdə istehsal olunan qida, təbii mineral sular, şərab və digər spirtli içkilər, fındıq və qurudulmuş meyvə məhsulları sərgi ziyarətçiləri tərəfindən böyük maraqla qarşılanıb. Azərbaycan və Çin arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsi, yerli məhsulların Çin bazarına çıxarılması, ixracın stimullaşdırılması, həmçinin iki ölkənin iş adamları arasında əməkdaşlığın təşviqi məqsədilə həyata keçirilən tədbirdə 22 sahibkarlıq subyekti iştirak edib.

# Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının birləşdirici rolu var



**_Qlobal müstəvidə cərəyan edən siyasi-iqtisadi proseslər, müasir tarixi vəziyyət və milli-mədəni inkişaf tendensiyaları türkdilli ölkələr arasında əlaqələrin möhkəmləndirilməsinə zərurəti artırır. İstər islam, istərsə də türk tarixində özünəməxsus yeri olan Azərbaycan yaranmış tarixi şəraiti doğru qiymətləndirərək, türkdilli ölkələrlə əməkdaşlığını inkişaf etdirməyə maraq göstərir, siyasi-iqtisadi, sosial-mədəni və humanitar əlaqələri gücləndirməyə, o cümlədən, mürəkkəb geosiyasi şəraitdə strateji tərəfdaşlığı dərinləşdirməyə çalışır. Bu baxımdan, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Qırğızıstandakı Zirvə görüşü Azərbaycanın da daxil olduğu türk dünyası ölkələri arasında münasibətlərin inkişafına növbəti töhfə verəcəyini əminliklə demək olar._**

Əslində, tarixçilər türkçülüyün qorunub-saxlanılmasında Azərbaycanın hər zaman əhəmiyyətli rol oynadığını, xüsusilə, vurğulayırlar və hətta Türküstanın şərqi və qərbi arasında Azərbaycanın körpü rolunu oynamasından da bəhs olunur. Ümumiyyətlə, türkdilli ölkələrlə münasibətlərin daim diqqət mərkəzində saxlanılması Azərbaycan dövlətinin xarici siyasətində önəmli istiqamətlərdən birini təşkil edir. Belə diqqətin mərkəzində türk dünyasının geniş coğrafi məkanı əhatə etməsi ilə bərabər, türkdilli xalqların ortaq tarixi köklərə malik olması da dayanır. Türkiyənin Prezidenti olmuş mərhum Süleyman Dəmirəlin dediyi kimi, "Türk dünyası" 11 milyon kvadratkilometrdir. Bu isə, o deməkdir ki, üç Avropa böyüklüyündə bir sahədə türk dillərində danışan, "mən türkəm" deyən, ənənəsi, dini, dili və tarixi bir olan insanların dünyası var. Bu, bir ulu çinardır ki, bu ulu çinarın budaqları vardır. Türkə görə 21 qol bu çinarın budaqlarıdır".

Sovetlər ittifaqının dağılmasından sonra türk xalqlarının yaxınlaşması, ortaq maraqların müdafiə və inkişaf etdirilməsi baxımından yaranmış əlverişli tarixi şərait Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) kimi mühüm bir təşkilatın təsis edilməsinə zəmin yaratdı. Əsası 3 oktyabr 2009-cu ildə Naxçıvan Muxtar Respublikasında keçirilən toplantıda qoyulan TDƏŞ, ötən dövr ərzində türkdilli xalqların həyatında getdikcə önəmli rol oynamağa başladığını artıq təsdiqləyir. Xüsusilə, qeyd etmək yerinə düşərdi ki, məhz Naxçıvan Zirvə görüşü türk dünyasının birgə tərəqqisi istiqamətində əhəmiyyətli rol oynadı və bundan sonra, yeni həmin Zirvə görüşündən sonra Türk Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Miras Fondu, Türk Ağsaqqallar Şurası kimi təşkilatlar yarandı.

Daha dəqiq desək, yeniləşən dünya nizamında ortaq tarixin, dinin, dilin, etnik köklərin, mədəniyyətlərin birləşdirici amil rolunu oynaması türk dövlətlərinin timsalında yeni-yeni qurumların, səmərəli təşkilatların yaranmasına, formalaşmasına və fəaliyyət göstərməsinə zəmin yaratdı. Məhz böyük ərazilərə, zəngin təbii sərvətlərə, geniş coğrafi imkanlara, böyük çoxluqda insan sayına malik olması da türk dövlətlərinin Avrasiya məkanında strateji məsələlərdə eyni bir cinahdan, vahid cəbhədən çıxış etməsinə imkan verir.

Məhz bu kontekstdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Qırğızıstandakı Zirvə görüşü də təşkilat çərçivəsində qəbul edilmiş qərarların və artıq fəaliyyət göstərən qurumların türkdilli xalqlar arasında münasibətlərin bundan sonra daha da dərinləşməsinə töhfələr verəcəyi şübhə doğura bilməz. Ən əsası isə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının inkişaf etdirilməsi təşəbbüslərində Azərbaycanın xüsusi rol oynaması ölkəmizin xarici siyasətdə geniş imkanlara malik olması anlamına gəlir və bu baxımdan, demək olar ki, Qırğızıstanda keçirilən Zirvə görüşü Azərbaycanın türk dünyasında rolunun əhəmiyyətli dərəcədə artdığını nümayiş etdirdi. Hətta növbəti sammitin məhz Bakıda keçiriləcəyi qənaəti isə, deyilənləri təsdiq edir və heç bir cəhdlə inkar edilə bilməz ki, sammit ərəfəsində türkdilli dövlətlər arasında müzakirə olunan məsələlər bütün ölkələr üçün mühüm əhəmiyyət kəsb edir. Görünür, elə buna görə də, şuraya daxil olan ölkələrin sayı durmadan artır və bu da, öz növbəsində, ölkələr arasında həyata keçirilən layihələrin də əhəmiyyətini artırmış olur.

*İnam HACIYEV*

## "Yeni Şafak": PKK terrorçuları Ermənistanın dəstəyi ilə Türkiyə ərazisinə keçirilir

Şimali İraqdan Türkiyənin Qara dəniz bölgəsinə göndərilən PKK terrorçularının qarşısı ordu qüvvələri tərəfindən alınıb. Terror təşkilatının son planının uğursuz olması səbəbindən PKK silahlılarının Türkiyəyə giriş marşrutu dəyişib. İndi onlar dəhliz kimi Ermənistandan istifadə edirlər. AZƏRTAC Türkiyənin "Yeni Şafak" qəzetinə istinadla xəbər verir ki, PKK-nın Ermənistandakı düşərgələrindən sol təmayüllü təşkilatların dəstəyi ilə terrorçular Ağrı, Bingöl, Tunceli və Tokat vilayətləri ilə Qara dəniz bölgəsindəki dağlara göndərilir. Türk mətbuatının məlumatına görə, Türkiyəyə gizli yolla keçən terrorçular Gümüşhanə bölgəsində toplaşmağa çalışırlar. Bundan başqa, PKK üzvlərinin Ermənistan-Türkiyə sərhədini keçərək Tendurek dağına yerləşdiyi faktı məlum olub. Türkiyə mətbuatı ölkənin xüsusi xidmət orqanlarına istinadla xəbər verir ki, Ermənistanın illərdir dəstək verdiyi və ərazisində düşərgə qurmaq imkanı yaratdığı terrorçular bölgədə məskunlaşmağa cəhd göstərirlər.


Ana Sayfa / Gündem

Yeni terör koridoru Ermenistan

PKK'nın Karadeniz için K.Irak'tan gönderdiği teröristler sınırda vurulunca, örgüt bu defa Ermenistan'a yöneldi. Yasadışı sol terör örgütlerinin desteğiyle Ermenistan'daki kamplardan sınırı geçen teröristler Tendürek'e çıktı. Mehmetçik TİKKO, MKP, TİKB, MLKP'nin yapılandığı Tunceli, Bingöl, Ağrı ve Tokat çevresinde teyakkuzda.

Qeyd edək ki, Türkiyə təhlükəsizlik qüvvələri Qara dəniz bölgəsinə sızmaq istəyən PKK-nın, eləcə də TİKKO, MKP, TİKB, MLKP kimi sol terrorçu təşkilatların Tunceli, Bingöl, Ağrı və Tokat ətrafındakı fəaliyyəti ilə bağlı geniş tədbirlər həyata keçirib.

## Yaponiya xarici işlər nazirinin xanımı Uşaq Bərpa Mərkəzində olub



Yaponiya xarici işlər naziri Taro Kononun ölkəmizə səfəri çərçivəsində xanımı Kaori Kono Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud uşaqlar üçün yaradılmış tibbi-sosial reabilitasiya şəraiti ilə tanış olub.

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, qonağa bildirilib ki, ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinin gücləndirilməsi, sağlamlıqlarının bərpası, tibbi-sosial reabilitasiyası aparılan sosial siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Prezident İlham Əliyevin tapşırığı əsasında son illərdə bu sahədə infrastrukturun təkmilləşdirilməsi işləri çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Uşaq Bərpa Mərkəzində də ən müasir tələblərə uyğun reabilitasiya şəraiti yaradılıb. Müəssisədə aparılan işlərin davamı kimi, bu ilin səkkiz ayında burada iki mindən çox sağlamlıq imkanları məhdud uşağa stasionar və ambulator qaydada bərpa müalicəsi xidmətləri göstərilib. K.Kono Uşaq Bərpa Mərkəzində yaradılan reabilitasiya şəraiti, informasiya-məsləhət və tədris, tibbi-sosial reabilitasiya və funksional diaqnostika şöbələrinin fəaliyyəti ilə tanış olub. O, sağlamlıq imkanları məhdud uşaqların bərpası üçün fərdi reabilitasiya proqramlarına uyğun şəkildə tətbiq edilən fizioterapevtik prosedurları, tədris metodikaları əsasında tədris-peşə reabilitasiyası sahəsində aparılan işləri nəzərdən keçirib.

## "YARAT"da rusiyalı rejissorun filmi göstəriləcək




Sentyabrın 11-də "YARAT" Müasir İncəsənət Mərkəzində rejissor İvan Tverdovskinin "Atılmışlar" filmi nümayiş ediləcək. AZƏRTAC xəbər verir ki, Rusiya Film Həftəsi çərçivəsində təqdim olunacaq ekran əsərinin xronometrajı 95 dəqiqədir. Film nadir xəstəliyi olan və ömrü boyu internatda yaşayan bir gəncin həyatından bəhs edir. Anası onu gözlənilmədən internatdan çıxarıb evlərinə gətirir. Filmin qəhrəmanı Moskvada, özündən asılı olmayaraq mütəşəkkil cinayət qrupunun mərkəzinə çevrilir. Film rus dilində nümayiş olunacaq.

## Nəsiminin türk divanının əlyazma nüsxəsinin surəti Bakıya gətirilib

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu direktorunun elmi işlər üzrə müavini, filologiya elmləri doktoru Paşa Kərimov Tehranın Mulis kitabxanasından böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadilli divanının - lirik şeirlər toplusunun yeni əlyazma nüsxəsinin surətini əldə edərək Bakıya gətirib. İnstitutdan AZƏRTAC-a bildirilib ki, 140 vərəqdən ibarət, nəstəliq xətti ilə köçürülmüş bu nüsxədə şairin "Nəsimi" təxəllüsü ilə yanaşı, "Hüsuyil", "Seyyid" təxəllüsü ilə yazdığı şeirləri də var.

## Aleksandr Lukaşenko öz tarlasından 42 ton qarpız və 60 ton kartof yığıb

Belarus Prezidenti Aleksandr Lukaşenko işgüzar tədbirlərin başa çatmasından sonra sentyabrın 5-də öz tarlasından kartof və bostan məhsullarının yığımına başlayıb. AZƏRTAC Interfax informasiya agentliyinə istinadla xəbər verir ki, dövlət başçısının mətbuat xidmətinin məlumatına əsasən, yayın nisbətən quraq keçməsinə baxmayaraq, prezidentin sahəsindən xeyli kartof yığılıb - 1,5 hektardan 60 ton. Məhsul elə tarladaca çeşidlənib.

Dövlət başçısının bostan sahəsi də məhsuldarlığı ilə seçilib, belə ki, 1,6 hektardan 42 ton qarpız yığmaq mümkün olub. Prezident məhsulun yığılmasını birbaşa tarlada izləyib, hətta işçilərə kömək edib və qarpızın dadına baxıb. Aleksandr Lukaşenkonun əkin sahəsi geniş olduğundan məhsul yığımı qarşıdakı günlərdə də davam edəcək.

# Azərbaycan təhsili güclü maddi-texniki bazaya və kadr potensialına malikdir

*Məclisin Elm və təhsil komitəsinin üzvü Pərvin Kərimzadənin yap.org.az-a müsahibəsi*

***- Pərvin xanım, artıq ölkəmizdə yeni tədris ili başlamaq üzrədir. Hər il 15 sentyabr Bilik Günü respublikamızda böyük təntənə ilə qeyd olunur. Bu baxımdan, qarşıdan gələn yeni tədris ili və bu ilə hazırlığın səviyyəsi ilə bağlı fikirlərinizi bildirməyi xahiş edirik...***

-"Bilik Günü"nün böyük bayram kimi qeyd olunması Azərbaycanda bir ənənəyə çevrilib. Hər bir xalqın, ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Buna görə də ölkəmizdə təhsilin müasir dünya standartları səviyyəsinə qaldırılması məqsədi ilə aparılan islahatlar uğurla davam etdirilir, təhsilin inkişafı və xalqımızın gələcəyi üçün sağlam vətəndaşların yetişdirilməsi ümummilli məsələyə çevrilib. Bu, ilk növbədə dövlətin müəyyənləşdirdiyi təhsil strategiyasının tələbidir. Hansı sahədə fəaliyyət göstərməyimizdən asılı olmayaraq hər birimiz bu ali məqsədin reallaşmasında yaxından iştirak etməliyik. Çünki xalqımızın gələcəyi və sivilizasiyalı dünyaya inteqrasiyasının yeganə yolu məhz təhsilin inkişafından keçir.

Sevindirici haldır ki, Azərbaycanda dinamik iqtisadi inkişafın sürətləndirilməsinə, cəmiyyət həyatının bütün sahələrində, xüsusi ilə də Azərbaycanın parlaq gələcəyinə hesablanan elm və təhsil sahəsində mütərəqqi islahatların aparılmasına böyük önəm verilir.

***- Bildiyimiz kimi, təhsil sahəsinin inkişafı Azərbaycan dövləti üçün prioritet istiqamətlərdən biridir. Dövlətin təhsil sahəsində həyata keçirdiyi islahatları necə qiymətləndirirsiniz?***

- Təhsil hər bir ölkə üçün strateji bir sahədir. Dahi rəhbər Heydər Əliyevin dediyi kimi, təhsil hər bir xalqın gələcəyidir. Təhsilsiz inkişaf ola bilməz. Bu mənada elm, təhsil hər bir ölkənin inkişafının əsasını təşkil edir. İnkişaf etmiş dövlətin qurulması üçün birinci amil yüksək təhsil səviyyəsinin olmasını hesab edən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən də Azərbaycan təhsilində sistemli islahatlar aparılaraq Ulu Öndərin təhsil siyasəti uğurla davam etdirilir. Ölkədə təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Təhsilin bütün pillələrində - uşaq bağçalarında, məktəbdənkənar müəssisələrdə, orta məktəblərdə, kolleclərdə, peşə təhsilində, ali təhsil sahəsində, ali təhsildən sonrakı təhsil, əlavə təhsil sahəsində yeni layihələrin reallaşdırılması istiqamətində mühüm addımlar atılıb. Prezidentimiz cənab İlham Əliyevin təhsil sahəsində həyata keçirdiyi islahatlar - təhsildə infrastrukturun yenilənməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, ümumtəhsil məktəblərinin kadr potensialının və tədrisin keyfiyyətinin yüksəldilməsi ölkədə təhsillə bağlı nəticələrə də müsbət təsir göstərib.

***- Məlumdur ki, təhsilin inkişafı ilə bağlı müxtəlif proqramlar həyata keçirilir. Bu proqramların və islahatların təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası baxımından əhəmiyyəti nədən ibarətdir?***

- Bu gün təhsil sistemində aparılan islahatlar artıq öz nəticələrini verməyə başlayıb. Azərbaycan təhsili güclü



maddi-texniki bazaya, kadr potensialına malikdir. Bu sahələrdə əldə olunmuş nailiyyətlər dünyanın sivil ölkələri ilə müqayisə olunmağa layiqdir. Artıq ölkəmiz getdikcə öz milli-mənəvi dəyərlərini, tarixi ənənələrini qoruyaraq Avropa təhsilinə daha sürətlə inteqrasiya olunur. Bu gün Azərbaycan təhsili, mədəniyyəti dünya sivilizasiyasına tam cavab verən səviyyədədir. Boloniya sistemi təhsilimizin Avropaya inteqrasiyası baxımından faydalı addımdır.

Azərbaycanda gənclər bu yolla gedib dünyanın müxtəlif ölkələrində bir il, bir semestr təhsil alıb, dünya təhsil prosesini görürlər. Həmçinin, Erasmus proqramı Avropa ölkələri ilə müəllim-tələbə mübadiləsi həyata keçirilirdi ki, bu da ölkədə ali təhsilin inkişafına öz təsirini göstərdi. Hazırda isə Erasmus+ proqramı çərçivəsində Şərq Tərəfdaşlığı ölkəsi olan Azərbaycan ali təhsil müəssisələri birgə magistratura proqramları, Kredit mobilliyi (keçmiş "Erasmus Mundus" ), Potensialın gücləndirilməsi layihələri (keçmiş "Tempus"), Jan Mone Proqramı, Bilik Alyansları, Strateji Tərəfdaşlıq və Sektor Bacarıqları (müəyyən şərtlər ilə) kimi imkanlardan istifadə edəcək.

***- Milli Məclisin ötən sessiyasında "Təhsil haqqında" Qanuna bir sıra önəmli dəyişikliklər edildi. Qarşıdan gələn payız sessiyasında da təhsil qanunvericiliyində hansısa yenilklərin edilməsi gözlənilirmi?***

- "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 21 maddəsinə 60-dan çox dəyişiklik edilib və 2 yeni maddə əlavə olunub. Dəyişikliklər yalnız ümumi təhsili deyil, təhsilin bütün pillə və səviyyələrini əhatə edib. Belə ki,"Təhsil haqqında" Qanunda təhsil müəssisələrində psixoloji xidmətin təşkili, ali təhsil müəssisələrində orta ixtisas təhsilinin təşkili, fənn olimpiadalarının qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu, pedaqoji fəaliyyətlə məşğul olma, dövlət ümumtəhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması və digər məsələlərdə ciddi dəyişikliklər edilib. Ən böyük dəyişiklik 6 yaşı tamam olan uşaqların məktəbə qəbulu qaydalarında edilib. Həmin dəyişikliyə əsasən, 15 sentyabr - 31 dekabr tarixlərində 6 yaşı tamam olan uşaqlar ümumtəhsil məktəblərinin 1-ci sinfinə qəbul ediləbilər. Ciddi müzakirələrə, fikir ayrılıqlarına, hətta narahatlıqlara səbəb olan dəyişikliklərdən biri də beynəlxalq fənn olimpiadalarının, respublika fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunması ilə bağlıdır.

Qanunda peşə təhsili ilə bağlı da dəyişiklik var. Belə ki, bu gün xidmət və digər sahələrdə çalışan insanlar var ki, onların nə dərəcədə peşəkar səviyyədə olması bilinmir. Peşələri xüsusi adamların yanında çalışmaqla öyrənənlərin bununla bağlı hər hansı bir sənədi olmur. Yeni qaydaya görə, həmin şəxslər müraciət əsasında öz bilik və bacarıqlarını təsdiq etmək üçün müəyyən bir prosedurdan keçib sertifikat və bununla da əmək bazarına daxil olmaq üçün əlverişli imkan əldə edəcəklər. Bu da ölkədə peşə təhsili sisteminin daha da təkmilləşdirilməsinə, məşğulluq imkanlarının artırılmasına ciddi şəkildə müsbət təsirini göstərəcək. Qeyd edim ki, Milli Məclisin yaz sessiyasında "Peşə təhsili haqqında" qanun layihəsi qəbul olundu ki, bu da peşə təhsili sahəsi üztə ən işlək sənədlərdən biri olacaq və peşə təhsilinin inkişafında mühüm rol oynayacaq və ölkədə peşə təhsilinin inkişafına stimul verəcək. Digər yenilik ali təhsilli şəxslərin ikinci dəfə təhsil alması ilə bağlıdır. Belə ki, ali təhsilli şəxs kolleclərə müsabiqədən kənar qəbul oluna biləcək. Bundan başqa ölkə olimpiadaların qaliblərinə də ali məktəbə qəbul zamanı güzəştlər veriləcək.

Bundan başqa, artıq xarici ölkələrdə təhsil almaq hüququ verən proqramlarda təhsil almış abituriyentlərin də Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrinə qəbul olmaq imkanı var. "Ümumi təhsil haqqında" yeni qanun layihəsinin ilkin variantı oktyabr ayının ikinci yarısından sonra Milli Məclisin iclasında müzakirəyə təqdim olunacaq. Yeni qanun layihəsində orta məktəblərin hüquqi imkanları və idarə olunması, orta ümumi təhsil müəssisələrində özəl sektorun işinin tənzimlənməsi ilə bağlı müddəalar qeyd edilib. Qanun layihəsinə "müasir məktəb" anlayışı da əlavə ediləcək.

***- Pərvin xanım, təmsil etdiyiniz Gəncə şəhərində təhsilin keyfiyyətinin daha da gücləndirilməsi və müasir təhsil infrastrukturu quruculuğu istiqamətində nə kimi işlər görülüb?***

- Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində atılan addımlar paytaxtla yanaşı ən ucqar bölgələrdə də həyata keçirilir. Təsadüfi deyil ki, son 15 ildə respublika ərazisində heç bir dövrdə müşahidə olunmadığı qədər məktəb binası tikilib, bir çox məktəb binaları üçün yeni korpuslar inşa olunub, köhnə tədris müəssisələri bərpa və əsaslı təmir edilib.

Gəncə şəhərində də təhsil quruculuğu sahəsində görülən işlər təhsilin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına şərait yaradıb. Bunun nəticəsidir ki, hər il Gəncə şəhərində fəaliyyət göstərən təhsil müəssisələrindən ali məktəblərə qəbul olunan məzunların sayı artır. 2017-2018-ci tədris ilində Gəncə şəhəri üzrə ümumtəhsil məktəblərinin məzunlarından 1824 nəfəri qəbul imtahanlarında iştirak ediblər. Onlardan 1105 nəfəri ali təhsil müəssisələrinə qəbul olublar. Qəbul imtahanlarında 358 məzun 200-300, 461 məzun 300-500, 174 məzun 500-600, 90 məzun 600-700 intervalda, 1 məzun isə maksimum nəticə- 700 bal toplayıb.

## Bəhruz Quliyev: "Azərbaycan idmançıları beynəlxalq arenada ölkəmizi layiqincə təmsil edirlər"



"III Dünya Köçəri Oyunlarında Azərbaycanın ilk qızıl medalını qazanması münasibəti ilə dövlət başçımızı və bütün xalqımızı təbrik edirəm. Azərbaycan idmançıları həmişəki kimi, beynəlxalq arenada uğurla çıxış edir, ölkəmizi layiqincə təmsil edirlər". Bunu SİA-ya açıqlamasında III Dünya Köçəri Oyunlarına Azərbaycandan qonaq kimi dəvət olunan "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev deyib. O qeyd edib ki, idmançılarımızın III Dünya Köçəri Oyunlarında uğurla çıxış etməsi Azərbaycanda idmana dövlət tərəfindən göstərilən diqqət və qayğının nəticəsidir: "İdmançılarımız onlara göstərilən etimadı doğruldurlar. Hazırda Azərbaycan millisinin aktivində 14 medal var. Onlardan 1-i qızıl, 5-i gümüş, 8-i isə bürünc medaldır. Medallarımızın sayı artmaqda davam edəcək".

B.Quliyev vurğulayıb ki, Azərbaycanda idmanın inkişafı bütün dünyanın diqqət mərkəzindədir: "Ölkəmizdə dünyanın ən böyük idman yarışları yüksək səviyyədə təşkil edilir. Bütün dünya Azərbaycanın təşkilatçılıq bacarığının şahidi olub. İdmançılarımız isə dünyanın ən mötəbər yarışlarında əldə etdikləri nəticələrlə xalqımızı sevindirirlər. Əminəm ki, Azərbaycan bundan sonra da daha böyük uğurlara imza atacaq".

## Siyasi şərhçi: "Bizim Xorvatiya ilə heç bir sahədə problemimiz yoxdur"



"Ümumiyyətlə Azərbaycan-Xorvatiya münasibətləri, diplomatik əlaqələri hələ 1995-ci ildən qurulub. İstər siyasi, iqtisadi, istərsə də mədəni və digər sahələrdə daima müsbət tendensiayalar olub". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Arzu Nağıyev deyib. Onun sözlərinə görə, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Xorvatiyaya səfər etməsi, eləcə də Xorvatiya prezidentlərinin Azərbaycana gəlməsi mühüm əhəmiyyət kəsb edən görüşlərlə yadda qalıb: "Məlum məsələdir ki, görüşlərlə bağlı "Zaqreb" bəyannaməsi də imzalanıb. Bundan başqa Xorvatiya ilə Azərbaycan arasında əsasən Avropanın enerji təhlükəsizliyinə təhidin qarşısının alınması ilə bağlı müvafiq sənədlər var. Yəni bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinə təhidin qarşısını almaqla bərabər, eyni zamanda bunu Xorvatiya üçün də edir. Eləcə də gələcəkdə Xorvatiya ərazisində müvafiq qaz terminallarının yaradılması da nəzərdə tutulur. Həmçinin kiçikhəcimli gəmilərin inşası və gəmiqayırma sahəsində müəyyən addımlar atıla bilər. Turizmin, infrastrukturun, informasiya texnologiyaları ilə bağlı da bu sahədə mühüm əlaqələr var. Xorvatiya minalardan təmizlənmə sahəsində çox böyük təcrübəyə malikdir.

Düşünürəm ki, Azərbaycan bundan da yararlana bilər. Son imzalanan müqavilələr də onu göstərir ki, bizim mədəni əlaqələrimiz yüksək səviyyədə inkişaf edə bilər. Bizim Xorvatiya ilə heç bir sahədə hansısa problemimiz yoxdur. Yəni həm Azərbaycanın tranzit bir ölkə olması, eyni zamanda Avropa İttifaqına daxil olan bir dövlətlə münasibət qurmaq Azərbaycan və Xorvatiya üçün də çox mühüm əhəmiyyət kəsb edir. Bu görüşdə də bunlar bir daha vurğulanıb".

## Musa Qasımlı: "Prezidentin səfəri qarşılıqlı münasibətlərdə yeni addım olacaq"



"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Xorvatiya Respublikasına səfəri böyük əhəmiyyət daşıyır". Bunu SİA-ya açıqlamasında millət vəkili, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı deyib. "Hər şeydən əvvəl bu onunla bağlıdır ki, Azərbaycan-Xorvatiya münasibətlərinin beynəlxalq hüquq müqavilə əsasları yaradılıb. Siyasi, ticarət, iqtisadi, elmi texniki, mədəni və humanitar sahələrdə geniş əməkdaşlıq var. Xorvatiyanın yerləşdiyi Avropanın Cənubu, Balkan yarımadası dünyanın mühüm geosiyasi məntəqələrindən biridir. Azərbaycan dövləti Balkan regionunda bir sıra layihələri həyata keçirir. Fikrimcə, cənab Prezidentin Xorvatiya Respublikasına səfəri qarşılıqlı münasibətlərdə yeni addım olacaq", - deyə, deputat fikrini tamamlayıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Xorvatiya Respublikasına rəsmi səfərə gəlib. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Zaqreb şəhərinin "Franyo Tucman" aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

# Soçi uğuru: çoxvektorlu siyasətin növbəti təntənəsi

***Azərbaycanın dövlət başçısı İlham Əliyevin Rusiyanın Soçi şəhərində Vladimir Putinlə apardığı müzakirələr geniş marağa səbəb olub. Burada imzalanan sazişlərin məzmunu və əldə edilən nəticələr göstərir ki, söhbət iki müstəqil dövlətin strateji əməkdaşlığı daha da inkişaf etdirmək niyyətindən gedir. Cənubi Qafqazın başqa heç bir dövləti bu miqyasda çoxvektorlu xarici siyasət həyata keçirə bilmir. Azərbaycan ABŞ-la əlaqələrini inkişaf etdirir. Avropa İttifaqı ilə hərtərəfli əməkdaşlığa dair yeni saziş hazırlanır, Türkiyə ilə əlaqələr yüksək səviyyədədir, İranla münasibətlər dinamik inkişaf edir, Çin ilə əlaqələr genişdir, Gürcüstanla əməkdaşlığın konkret məzmunu hamıya məlumdur. Rusiya kimi böyük qonşu dövlətlə də qarşılıqlı faydalı əməkdaşlıq kursunun müəyyənləşdirilməsi həyat əhəmiyyətli məsələdir. Regionda məhz Bakı bu vəzifənin öhdəsindən gəlir. Bütün bunlara görədir ki, Soçidə əldə edilən razılıqlar tarixi məzmun kəsb edir və Azərbaycanın müstəqil dövlət kimi inkişafına ciddi töhfələr verəcək. Məsələnin bu aspekti üzərində bir qədər geniş dayanmaq zərurəti vardır.***



## Tarix və müasirlik: iki müstəqil dövlətin əməkdaşlıq prinsipləri

Prezident İlham Əliyevin Soçidə Rusiya dövlət başçısı ilə görüşü səmərəli nəticələr verib. Bu hadisəyə KİV-lərin və ekspertlərin marağının böyük olması gözlənilən idi. Çünki Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi qlobal səviyyədə aparıcı oyunçulardan olan, ənənəvi tarixi əlaqələrə malik, coğrafi olaraq da qonşuluqda yerləşən Rusiya ilə münasibətlərin inkişaf perspektivlərini müəyyənləşdirməli idi. Prezidentlərin apardıqları müzakirələr və imzalanan sənədlər göstərdi ki, rəsmi Bakı kifayət qədər rasional, reallığa uyğun və düşünülmüş mövqe seçib. Etiraf etməliyik ki, bu məqam bir sıra dairələri qıcıqlandırmaqdadır.

Məsələnin mahiyyəti son zamanlar dünya siyasətində baş verən hadisələr və onların regional proseslərə təsiri ilə bağlıdır. Hazırda geosiyasi dinamika o dərəcədə həssaslaşıb və yeni çalarlar əldə edib ki, onlara çevik reaksiya vermək mürəkkəbləşib. Azərbaycan bütün faktorları nəzərə alaraq çevik xarici siyasət yürüdür. Bakının xarici siyasəti çoxvektorludur. ABŞ, Avropa, Türkiyə, Çin, İran və Rusiya kimi böyük güclərlə münasibətlərin qurulmasında zərgər dəqiqliyi nümayiş etdirilir.

Soçi görüşünə bu meyar aspektində yanaşdıqda, Azərbaycan rəhbərliyinin Rusiya ilə əlaqələrin inkişafına rasionallıqla yanaşdığını görmək mümkündür. Maraqlıdır ki, rəsmi İrəvan öz ənənəvi müttəfiqi ilə münasibətlərə son dövrlərdə bir qədər laqeyd yanaşır. Bunun arxasında nələrin dayandığını zaman göstərəcək. Ancaq bir həqiqət vardır: Bakı balanslaşmış məzmuna malik və qarşılıqlı faydalı əməkdaşlıq formuluna uyğun olan münasibətlər qurmaqda davam edir. Və hər zaman da bu kursdan bəhrələnir. Konkret Rusiya faktoruna gəldikdə həmin özəlliyi aydın surətdə görə bilərik.

Prezident İlham Əliyev Soçidə mətbuata verdiyi bəyanatda çıxışı zamanı vurğulayıb: "Ölkələrimizin dövlət başçıları arasında müntəzəm əlaqələr bizim çox möhkəm bazaya əsaslanan münasibətlərimizə dinamizm verir. Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşların münasibətləridir. Bu münasibətlər həyatımızın bütün sahələrini əhatə edir və bu gün mənim səfərim zamanı biz ikitərəfli münasibətlərimizin bir çox aspektlərini, beynəlxalq problemləri ətraflı şəkildə müzakirə etdik" (bax: Azərbaycan və Rusiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər / AZƏRTAC, 1 sentyabr 2018).

Bu fikirlərdə faktiki olaraq Azərbaycan-Rusiya münasibətlərinin xarakteri, məqsədləri və konkret əhatə dairəsi əks olunub. Hər şeydən əvvəl, bu münasibətlər strateji xarakterlidir, yəni uzun müddətə nəzərdə tutulur və konkret meyarlarla, məqsədlərlə müəyyənləşir. Bu isə ancaq iki müstəqil dövlət arasında mövcud ola bilər. Rusiya Azərbaycan üçün böyük qardaş deyil və olması da nəzərdə tutulmur. Bu baxımdan həm Rusiyada, həm də Azərbaycanda bir sıra ekspertlərin iki müstəqil dövlət arasındakı münasibətləri köhnə sovet qəlibində görmək kimi xəyallara düşməsi yersizdir, heç bir əsası yoxdur. Onlara ən yaxşı cavabı Rusiya Prezidenti Vladimir Putin mətbuata bəyanatında verdi. O, açıq ifadə etdi: "Qeyd edim ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Dövlətlərimizin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır" (bax: əvvəlki mənbəyə).

## "Yol xəritələri": əlaqələrin dərinləşməsi və genişlənməsinin prioritetləri

Bizcə, bu fikirlər Azərbaycan Prezidentinin yuxarıda vurğulanan fikirləri ilə tam səsləşir. İki dövlət arasındakı əməkdaşlığın strateji xarakteri başlıca olaraq üç prinsip üzərində qurulur: qarşılıqlı fayda, mehriban qonşuluq və bir-birinin marağına hörmət! Deməli, burada kiminsə kiməsə sığınmasından, ondan istifadə edib hansısa daxili problemini həll etmək niyyətindən və ya hansısa başqa dövlətə qarşı birgə hərəkət etməkdən söhbət gedə bilməz. Azərbaycan müstəqil dövlətdir və siyasətini də suveren hüquqlar çərçivəsində aparmaqdadır.

Bundan başqa, yuxarıda vurğulanan meyarlar məğər Azərbaycan-ABŞ və ya Azərbaycan-Aİ münasibətlərində əsas yeri tutmurmu? Dəfələrlə Qərb dövlət başçıları vurğulayıblar ki, Azərbaycanla əlaqələr qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq və maraqların gözlənilməsinə əsaslanıb. Deməli, Azərbaycanın istənilən dövlətlə (hətta qardaş Türkiyə ilə) münasibətləri ancaq və ancaq milli suverenliyə dərin hörmət əsasında qurulur. Azərbaycanı müstəqil dövlət kimi regionun müstəqilliyini əldə etmiş başqa ölkələrindən fərqləndirən başlıca cəhət də məhz bundan ibarətdir.

Bunlar bir daha göstərir ki, Soçidə imzalanan sazişlər, verilən xoşniyyətli bəyanatlar iki müstəqil dövlətin tarixi zərurəti diqqətə alaraq səmimi əməkdaşlıq münasibətlərini inkişaf etdirməsinə xidmət edir. Burada hansısa başqa məqam axtarmaq reallığa uyğun deyildir. Azərbaycanın xarici siyasəti çoxvektorludur və hər bir istiqamət üçün eyni prinsiplər işləyir. Bu baxımdan Rusiya ilə imzalanan və həyatın demək olar ki, bütün sahələrini əhatə edən sazişləri ölkə rəhbərliyinin apardığı xarici siyasət kursunun çox böyük uğuru kimi qiymətləndirmək olar.

Bununla rəsmi Bakı nümayiş etdirir ki, müasir tarixi mərhələdə müstəqil dövlət olaraq düşünülmüş, sistemli, obyektiv və qarşılıqlı faydalı münasibətlər qurmağa qadirdir. Təbii ki, bu proses davam etdirilərək getdikcə daha geniş məzmun kəsb edəcək. Bunun əlamətləri kimi Soçidə Prezidentlərin imzaladığı sazişlərin məzmununu göstərə bilərik.

Həmin sazişlər siyasət, mədəniyyət, iqtisadiyyat, nəqliyyat, enerji, texnologiyalar, avtomobil istehsalı, hüquq, təhsil, elm sferalarına aiddir. Bu kontekstdə V.Putinin söylədiyi fikirləri xatırlatmaq olar. Rusiya Prezidenti ifadə edib: "Əminəm ki, əsas idarələrin rəhbərlərinin və biznes nümayəndələrinin iştirak etdikləri bugünkü danışıqlar bütün Rusiya-Azərbaycan əlaqələri kompleksinin gələcək inkişafına əlavə təkan verəcək. Azərbaycan Prezidenti ilə imzalanan Birgə Bəyanat, həmçinin hökumətlərarası və idarələrarası sanballı sazişlər paketi məhz buna istiqamətlənib. İlk növbədə, əməkdaşlığın əsas istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planını qeyd edirəm. Bu proqram sənədə ticarətin və qarşılıqlı sərmayələrin artırılması, nəqliyyat marşrutlarının yaradılması, eləcə də humanitar qarşılıqlı fəaliyyətin, o cümlədən mədəni və turizm mübadilələrinin genişləndirilməsi kimi mühüm məsələlər üzrə belə adlandırılan yol xəritələri daxildir" (bax: əvvəlki mənbəyə).

Burada münasibətlərin həm məzmunu, həm də strateji məqsədi əks olunub. Göründüyü kimi, Moskva Azərbaycanı tam müstəqil dövlət kimi qəbul edir və onun digər böyük güclərlə əldə etdiyi razılaşmalara hörmətlə yanaşır. Bu məqam ciddi əhəmiyyətə malikdir. Həmin bağlılıqda iki Prezidentin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini müzakirə edib bununla bağlı fikir bildirməsi marağa səbəb olub. Rusiya Prezidenti bəyan edib ki, bundan sonra da münaqişənin danışıqlar yolu ilə həll edilməsi üçün əlindən gələni edəcək. Azərbaycanın dövlət başçısı da mətbuata verdiyi bəyanatında münaqişənin həlli ilə əlaqədar apardığı müzakirələri ayrıca vurğulayıb. Yəni bu məsələ də tərəflər arasında münasibətlərin məzmununa birbaşa daxildir. Belə bir nəticənin alınmasının, sözsüz ki, mühüm əhəmiyyəti var. Rusiya Azərbaycanın bu problemini yaxından hiss edir və onun həlli üçün fəallığını daha da artıracaq.

İki ölkə rəhbərinin görüşündə Rusiya ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlığın inkişafından bəhs edilməsi də mühüm məqamlardandır. Azərbaycan Prezidenti bəyan edib ki, bundan sonra da həmin istiqamətdə əməkdaşlıq davam edəcək. Hazırda Azərbaycanla Rusiya arasında hərbi sahədə əməkdaşlıq 5 milyard ABŞ dolları həcmindədirsə, həmin rəqəmin artması gözlənilir. Deməli, iki müstəqil dövlət qarşılıqlı maraq dairəsi çərçivəsində hərbi əlaqələri qurmaqda davam edəcəklər. Bundan kimlərinsə narahat olmasının əhəmiyyəti yoxdur.

Bütün bunlar Prezident İlham Əliyevin Soçi səfərinin böyük uğurla keçdiyini və iki qonşu dövlət arasında münasibətlərin inkişafına yeni təkan verdiyini göstərir. Növbəti dəfə Azərbaycan rəhbəri sübut etdi ki, konkret sazişlər əldə etməklə milli müstəqil dövlətçiliyi möhkəmləndirir. Rəsmi Bakı konkret iş görür. Başqaları da onunla sözünə sahib olan və real addımlar atan müstəqil dövlət kimi davranır.

***Newtimes.az***

# Azərbaycan multikulturalizm mərkəzi kimi tanınır

***Müasir zamanda müvafiq qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin göstəricisi olan tolerant mühit, multikultural dəyərlər hər bir vətəndaşın əmin-amanlıq, sabit ölkədə yaşamasına şərait yaradıb. Çoxkonfessiyalı və çoxmillətli ölkə olan Azərbaycan dünya ölkələrinə multkultural dəyərələrini, tolerant mühitini və özünün xoşməramlı mesajlarını göndərir.***



Dünyada baş verən böhranlardan və münaqişələrdən uzaq olmaq, birgə tədbirlərin görülməsinə nail olmaq, terrorizmə, münaqişələrə qarşı səmərəli mübarizə aparmaq üçün vətəndaşlıq prinsipləri, insan haqları, bərabərlik amillərini hər zaman diqqətdə saxlayan Azərbaycan terrorizm aktlarını törədənlərə, irqi və dini zəmində münaqişə yaradanlara qarşı qətiyyətli mövqeyini ortaya qoyur. Cinayətkar əməllərini dini şuarlarla pərdələməyə çalışan terrorçu qrupların islam dini ilə heç bir əlaqəsi yoxdur və islam dini qardaşlıq və birlik dini olaraq təbliğ edilir. Dövlətxalq birliyinə əsaslanan müdrik siyasət sayəsində ölkəmiz yeni-yeni uğurlara nail olur. Prezident İlham Əliyevin Azərbaycan multikultural cəmiyyətinin formalaşmasına verdiyi önəm ölkəmizdə multikulturalizm siyasətinin təzahürüdür. Bu gün dünyada, bəzi Avropa ölkələrində multikulturalizm siyasətinin iflasa uğradığının şahidi oluruq. Azərbaycan multikulturalizmi və tolerantlığı, multikultural və tolerant dəyərləri yaşayır. Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdə 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi bəşəri dəyərlərə olan ali münasbətin daha bir təzahürüdür. "İslam Həmrəyliyi İli" çərçivəsində İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi, 54 müsəlman ölkəsinin Azərbaycanda bir araya gəlməsi islam dünyasında böyük təntənə kimi qəbul olundu. Bu gün dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq, multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul edir və öyrənir. Əlbəttə ki, dünya ölkələri üçün nümunəyə çevrilən Azərbaycan modeli ölkəmizə gələn hər bir kəsdə maraq doğurur. Qonaqlar abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzini, Katolik məbədini, İmamzadə kompleksini, möhtəşəm Heydər Məscidini görür və bunu heyranlıq hissi ilə qarşılayaraq, müxtəlif dinlərə ölkəmizdə olan münasibəti bir daha görmüş olurlar.

Bu gün qətiyyətlə deyə bilərik ki, müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycanda erməni kilsəsi toxunulmaz olaraq qalır. Bu, artıq dediklərimizi əsaslandıran əsas amillərdəndir. İslama qarşı hücumların artdığı və islamofobiyanın gücləndiyi zamanda Azərbaycan ekstremizm və dözümsüzlük əleyhinə çıxış edir. Bütün bu göstəricilərin nəticəsidir ki, bu gün Azərbaycan multikulturalizmi dünya miqyasında, ali təhsil müəssisələrində öyrənilir. Artıq dünyanın 19 nüfuzlu dünya universitetində, Portuqaliyanın Lusofona, Ukraynanın Poltava, Rusiyanın Ural Federal Universitetində, Belarusun Minsk Dövlət Universitetində, Almaniyanın Auqsburq və Vürsburq universitetlərində, Polşanın Vrotslav, İndoneziyanın Qadjah Mada, Türkiyənin Erciyes, İsveçrənin Friburq, Litvanın Pedaqoji Universiteti, Bolqarıstanın Sofiya, Çexiyanın Karlov, Gürcüstanın Tbilisi Dövlət Universiteti, İtaliyanın La Sapienza, Yaponiyanın Hokkaydo, İsveçrənin Malmo və Hindistanın Sri Sri Universitetləri kimi ali təhsil ocaqlarında bu fənn tədris olunur. İldən-ilə də bu universitetlərin sayı durmadan artır. Eyni zamanda, 38 Azərbaycan universitetində də bu fənn tədris edilir. Bu, kifayət qədər geniş auditoriya tərəfindən qəbul olunur və gənclər maraq göstərirlər. Auditoriyada "Azərbaycan multikulturalizmi" fənnini dinləyən tələbələr nəzəri biliklər əldə edirlər. Onlara Azərbaycanın həm etnik-mədəni coğrafiyası, həm tarixi, həm ədəbiyyatı, həm günlük yaşam tərzi haqqında ətraflı məlumatlar verilir. Bununla da, həmin nəzəri biliklər yay və qış məktəblərində iştirak etməklə praktik bilgilərlə möhkəmlənir. Sevindirici məqam bundan ibarətdir ki, artıq fənnin tədrisində müəyyən müsbət təcrübə əldə olunub. "Azərbayan multikulturalizminin ədəbi-bədii qaynaqları" və "Azərbaycan multikulturalizmi" dərsliklərinin istifadəyə verilməsi tədrisin keyfiyyətinin daha da yüksəlməsinə səbəbdir. Prezident İlham Əliyevin "Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıdaq" təşəbbüsünün öz real həllini tapması məqsədilə aparılan ardıcıl və məqsədyönlü işin nəticəsində xaricdə "Azərbaycan multikulturalizmi" fənlərinin tədrisi daha geniş coğrafiyanı əhatə edəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## AŞPA-nın payız sessiyasının gündəliyi açıqlanıb



Avropa Şurası Parlament Assambleyasının (AŞPA) payız sessiyasının keçiriləcəyi tarix və gündəliyi açıqlanıb. SİA-nın verdiyi məlumata görə, sessiya bu il oktyabrın 8-dən 12-dək keçiriləcək. Sessiyanın gündəliyinə Avropada miqrantların və diaspor cəmiyyətlərinin radikallaşması məsələləri daxildir. Azərbaycanlı deputat Sahibə Qafarova bu mövzuda məruzə ilə çıxış edəcək.

Həmçinin AŞPA sessiyasının iştirakçıları İsrail ədliyyə sistemində fələstinli azlıqlarla rəftar məsələsini, Serbiyanın üzərinə götürdüyü öhdəlikləri nə dərəcədə yerinə yetirməsini müzakirə edəcək və Avropa Şurasının Birləşmiş Millətlər Təşkilatının insan haqları sahəsindəki mexanizmləri ilə əməkdaşlığını qiymətləndirəcəklər. Bununla bərabər, sessiya çərçivəsində Albaniya, Norveç və Türkiyə üzrə Avropa İnsan Hüquqları Məhkəməsinə hakimlərin seçilməsi baş tutacaq.

## Rasim Musabəyov: "Putin Paşinyana etimad və etibar etmir"



"Bu gün Azərbaycan dövlətinin Rusiya ilə münasibətləri o səviyyədədir ki, hər iki ölkənin rəhbərləri mütəmadi görüşürlər". Bunu SİA-ya açıqlamasında politoloq Rasim Musabəyov deyib. Onun sözlərinə görə, bu görüşlər istər hansısa tədbirlərlə bağlı, istərsə də ikitərəfli münasibətləri, beynəlxalq münasibətləri müzakirə etmək üçün təşkil olunur: "Bu müzakirələr də keçirildi. Elə məsələlər var ki, ən yüksək səviyyədə xeyir-dua alınmalıdır. Soçi görüşü ərəfəsində imzalanan sənədlər hüquqi baza yaratmır, konkret olaraq hüquqi bazaya söykənərək fəaliyyət nəzərdə tutub. Bu fəaliyyət yüksələn xəttlə ikitərəfli münasibətləri davam etməyə hesablanıb".

Politoloq Rusiya prezidenti Vladimir Putinlə Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvada keçiriləcək görüşünə də münasibət bildirib: "Bu gün Rusiya dövləti Ermənistandakı vəziyyətdən narahatdır. Putin özü üçün məsələyə bir aydınlıq gətirilməsini istəyir. Amma konkret olaraq Paşinyana etimad və etibar etmir. Biz əbədi olaraq gözləmək fikrində deyilik ki, ermənilər Azərbaycan torpağından çıxsın. Azərbaycan Prezidenti cənab İlham Əliyev bu məsələni də Rusiya prezidentinin diqqətinə çatdırıb. İndi istisna etmirəm ki, Rusiya tərəfindən müəyyən səylər göstərilsin. Amma bununla bağlı elə də böyük ümidlərim yoxdur".

# Rusiyalı ekspert: "Şimal-Cənub" layihəsi hazırda ən vacib birgə layihədir

***"Şimal-Cənub" layihəsi hazırda ən vacib birgə layihədir. Bu layihədə Azərbaycan çox böyük rol oynayır. Tanınmış rusiyalı ekspert, Siyasi İnformasiya Mərkəzinin analitiki İvan Pyatibratov bu sözləri AZƏRTAC-a müsahibəsində Azərbaycan dövlətinin başçısı İlham Əliyevin sentyabrın 1-də Soçiyə səfərinin və Rusiya Prezidenti Vladimir Putin ilə danışıqlarının yekununu şərh edərkən söyləyib.***

O deyib: "Bu cür görüşlər ölkələrimizin liderləri üçün artıq ənənəvi hal alıb. İlham Əliyevin Rusiyaya səfəri onun Rusiya tərəfinə və şəxsən Vladimir Putinə etimadının göstəricisidir. Belə olmasaydı onların görüşü hər hansı beynəlxalq forum çərçivəsində neytral ərazidə keçirilərdi. Görüşlərin müntəzəm keçirilməsi və yeni sazişlərin imzalanması ilə başa çatması onu göstərir ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji xarakter daşıyır və uzunmüddətli planlara əsaslanır".

Ekspert Soçi görüşünün nəticələrindən söhbət açaraq deyib: "Rusiya ilə Azərbaycan arasında iqtisadi münasibətlərin inkişafı yeni təkan alıb. Azərbaycanda "QAZ" avtomobillərinin yığma sahəsinin inşa edilməsi, "Qoşadaş" qaz yatağının və Xəzər dənizinin təkindəki bir hissənin "Rosneft" və SOCAR tərəfindən birgə öyrənilməsi layihələri ölkələrimizi ən mühüm sahələrdən biri olan neft-qaz və maşınqayırma sahəsində, deməli, siyasi baxımdan da yaxınlaşdırır. Qeyd etmək lazımdır ki, bu layihələrin həyata keçirilməsi üçün illərlə vaxt tələb olunur. Bu, dövlətlərimiz arasında münasibətlərin strateji xarakterini bir daha vurğulayır".




İ.Pyatibratov "Şimal-Cənub" layihəsinin əhəmiyyətini qeyd edərək dəqiqləşdirib: "Bu cür uzunmüddətli layihələr onların iştirakçılarını öz daxili və xarici siyasətlərini əlaqələndirməyə, maksimum səmərəli əməkdaşlığa və gələcəyi birgə qurmağa sövq edir. Bununla əlaqədar, deyə bilərəm ki, indiki mərhələdə ölkələrimizin aşkar yaxınlaşması çox cəhətdən məhz bu meqalayihə üzərində işlə bağlıdır. Həmin meqalayihə Rusiya üçün geosiyasi baxımdan - siyasi və iqtisadi təsir vektorlarının şaxələndirilməsi vasitəsi kimi, Azərbaycan üçün isə iqtisadi baxımdan - öz mallarının yeni bazarlara, ilk növbədə, Avropa bazarlarına çıxarılması yolu kimi, habelə respublikanın regionda ən mühüm qovşağa çevrilməsinə kömək edən amil kimi əhəmiyyətlidir. Beləliklə, Rusiya ilə Azərbaycan arasında münasibətlərin tədricən, lakin düzgün istiqamətdə möhkəmlənməsini, ölkələrimizin müştərək gündəliyinin formalaşmasını və qarşılıqlı maraqlar nəzərə alınmaqla əlaqələndirilməsini müşahidə edirik".

# Ermənistan-Rusiya münasibətləri korlanıb

## Tahir Rzayev: "Paşinyan Rusiya prezidentinin ayaqlarına düşməyə hazırdır"

*- Tahir müəllim, Ermənistanın baş naziri Paşinyan Rusiya Prezidenti Vladimir Putinlə görüşə tələsir. Sizcə, bu, nə ilə bağlıdır?*

- Bu gün Paşinyanın ağır durumda olması onu tələsməyə məcbur edir. O, siyasətçi kimi bütün koordinatları itirib. Birincisi, Ermənistan vassal bir respublikadır. Yəni ətraf dövlətlərin himayəsində olan respublikadır. Ermənistan hakimiyyəti uzun müddət təcavüzkar siyasət yeridib. İşğalçı ölkə, nəinki Azərbaycan torpaqlarına, digər torpaqlara da göz dikib. Bunlar daim işğalçılıqla məşğul olublar. Bu gün Paşinyan da bu siyasəti həyata keçirir. Lakin Rusiya müəyyən hallarda Koçaryanı, Sarkisyanı müdafiə və himayə edib. Bu dəfə Rusiya fərqli mövqe tutub. Səbəb Paşinyanın Qərbə üz tutmasıdır. Paşinyan artıq Rusiyanın təsirindən çıxmağa çalışır ki, rəsmi Moskva da buna heç cürə imkan vermək istəmir. Ona görə də, Paşinyana qarşı müəyyən təsirlər var. O cümlədən də, ölkənin daxilində də vəziyyət yaxşı deyil. O, baş nazir seçilərkən, insanlara müəyyən vədlər vermişdir ki, bir sıra problemlər həll olunacaq. Ancaq vədləri yerinə yetirə bilmədi. Bu, azmış kimi, o, qonşu dövlətlərlə, eləcə də, Rusiya ilə münasibətləri korlayıb. Elə Azərbaycanın özü ilə də. O, doğrudan da, erməni xalqının taleyini düşünsəydi, müəyyən kompromislərə getməli və Dağlıq Qarabağ məsələsində haqqın və ədalətin yanında olmalı idi. Yəni düzgün mövqe tutmalı idi, beynəlxalq təşkilatların qərarlarına, BMT-nin qətnamələrinə və digər dövlətlərin bu barədə dediyi fikirlərə tərəfdar çıxmalı idi. Ancaq o da şovinist - millətçilik yolu tutdu və hakimiyyətə gələndən sonra ilk səfərləri işğal altında olan Azərbaycan ərazilərinə etdi, sərsəm bəyanatlar verdi və s. Rusiya ilə əlaqələrin itirilməsi, Paşinyan hakimiyyətdən tezliklə gedəcəyinə əsas verir. Ona görə də, Paşinyan Vladimir Putinlə görüşə tələsir, nəinki tələsir, hətta yüyürmək istəyir. Hətta yeri gəlsə, Paşinyan Rusiya prezidentinin ayaqlarına düşməyə hazırdır. Çünki o yerində olan bir siyasətçi deyil.



**Müsahibimiz millət vəkili Tahir Rzayevdir**

*- Ermənistanda anti-Rusiya əhval ruhiyyəsinin güclənməsi nəticə etibarı ilə Paşinyanın başqa birisi ilə əvəz edilməsinə gətirib çıxara bilərmi?*

- Paşinyanın baş nazirliyi müvəqqətidir və o, ölkəni idarə etmək imkanına malik deyil. Ölkənin idarə olunması qonşularla əlaqələrin möhkəmlənməsindən və sülhsevər siyasətin yeridilməsindən asılıdır. Təəssüflər olsun ki, Ermənistan uzun müddətdir ki, bu məsələlərdə radikal mövqe tutur və millətçi mövqe sərgiləyir. Ümumiyyətlə, erməni xalqı, erməni siyasətçiləri qonşu dövlətlər olan Türkiyəyə, Azərbaycana və Gürcüstana qarşı daim radikal mövqedə olublar. Yəni hər zaman erməni siyasətçiləri və erməni rəhbərləri ikili mövqe tutublar. Onlar istənilən vaxt öz müttəfiqlərini sata bilərlər. Bunu Rusiya da çox yaxşı bilir. Koçaryanın və Sarkisyanın hakimiyyəti dövrlərində bəlli oldu ki, bunlar istənilən vaxtı həm müttəfiqlərini, həm də himayədarlarını sata bilərlər. Bu, onların xislətindədir. Rusiya da bunu yaxşı bilir. Ancaq Rusiya hər vəchlə Ermənistanı əlində saxlamaq istəyir. Çünki Ermənistan Rusiyaya müəyyən məsələlərə görə lazımdır. Bu gün bizim Rusiya ilə yaxşı münasibətlərimiz var və bu münasibətlər, ölkə rəhbərinin dediyi kimi, son illər daha da möhkəmlənib və daha da genişlənib. Dağlıq Qarabağ məsələsinin həllində Rusiya qəti sözünü deməlidir. Rusiya qəti sözünü desə, Paşinyan kimi adamlar ayaq açıb cığallıq etməzlər, ya da digər ölkələrlə münasibətə girib, Rusiyanı çətin vəziyyətə salmazlar və satqın mövqedə olmazlar.

**GÜLYANƏ**

# Ermənistan uçurum astanasında

## Paşinyanın qeyri-ciddi siyasəti iflasa doğru gedir

***Bu gün Ermənistan ağır və çətin günlərini yaşayır. Xüsusilə də Azərbaycan və Rusiya liderlərinin Soçi görüşü ən çox işğalçı Ermənistanda həyəcana səbəb olub. Prezident İlham Əliyevlə Prezident Vladimir Putinin imzaladığı sənədlər, əldə olunan razılaşmalar və etdikləri çıxışlar İrəvanda "Moskva Bakıya dəstək verməyə başladı" narahatlığını yaradıb.***

Erməni eksperti-şərhçi Sarqis Artsruni Rusiyanın Ermənistanla münasibətlərə artıq qeyri-ciddi yanaşdığını yazır: "Putin Nikol Paşinyanla protokol xarakterli görüşlər keçirib və heç bir razılıq əldə olunmayıb. Bu kontekstdə Bakı və Moskva arasında münasibətlərin inkişafı Ermənistan üçün son dərəcədə həyəcanlıdır".

Göründüyü kimi, Azərbaycan və Rusiya liderləri arasında keçirilən Soçi görüşündən sonra Ermənistanın baş naziri Nikol Paşinyan Putinlə danışıqlar aparmaq üçün sentyabrın 8-də Moskvaya yola düşəcəyini bildirib. Paşinyan qeyd edib ki, bu səfərdə bütün problemlərin həllinə ümid etmir, lakin ən azı, münasibətlərin gələcəkdə daha da pisləşməyəcəyinə inanır. Və buna görə də, Paşinyan Putinlə görüşmək üçün dəridən-qabıqdan çıxır.

Nikol Paşinyanın ölkədə irimiqyaslı iqtisadi yoxlanışlar aparması da Ermənistana investisiya yatırmaq kimi imkanların əldən getməsinə, ümumilikdə, yeni problemlərin baş qaldırmasına gətirib çıxarır. Belə ki, ölkədə korrupsiya ilə mübarizə şüarı altında milli oliqarxlara toxunaraq, yoxlanışlar keçirilir. Xüsusi olaraq, vurğulamaq yerinə düşər ki, Ermənistan hökumətinin "Yüksək gərginlikli QSC xətlər" etnik erməni Samvel Karapetyanın sahibi olduğu Rusiyanın "Taşir" şirkətinə verməkdən imtinası oldu.

Daxili investorlara gəlincə, ekspertlərin sözlərinə görə, hazırda ölkədə keçirilən "oliqarxsızlaşdırma" prosesi nəticəsində, bir sıra iri sahibkarlar Paşinyandan incikdirlər və vəziyyətin sabitləşməsini gözləyirlər: "Ermənistanda hansısa yaxşı və ya pis, münasibət formaları yaranıb. Bu sxemi bir saata dəyişmək çox çətindir. Paşinyan hazırda bir qurumu düzəldirsə, digərini dağıtmaqla məşğuldur. Bu da, yeni hökumət üçün başlıca problemdir. Hazırda Paşinyan 10 il müddətinə zərbə görmüş iqtisadi idarə meydanını formalaşdırmağa çalışır. Bu vəziyyətdə qeyri-sabitlik riskləri var. Heç bir investor ölkədə siyasi sabitlik şəraiti yaranmazsa və müəyyən qaydalara riayət olunmazsa, oraya sərmayə yatırmaz. Paşinyan bu siyasi oyunları davam etdirməklə, Ermənistan üçün heç bir uğur gətirməyəcək. Çünki bu gün Ermənistanda nə siyasi sabitlik, nə də iqtisadiyyatda müəyyən qaydalar var.



### İşğalçı ölkə bu vəziyyətdən işğal etdikləri Qarabağı Azərbaycana qaytarmaqla çıxa bilər

Ekspertlər bildirirlər ki, bütünlüklə, Ermənistanın bu çətin durumdan çıxmasının yeganə yolu Qarabağı Azərbaycana qaytarmaqdır. Rusiyalı politoloq Andrey Yepifantsev bildirir ki, yaxın zamanda Paşinyan xalqın kumirindən uğursuz liderə çevriləcək: "Qarabağ və qondarma erməni "soyqırımı" prinsipindən imtina etmədən, blokadadan çıxmadan iqtisadiyyatı inkişaf etdirmək mümkün deyil. Bu 4 ay ərzində Paşinyan iqtisadiyyata yeni heç nə gətirməyib və bundan sonra da, heç nə gətirməyəcək. O, Ermənistanın siyasi tələblərindən də imtina etmir, nəticədə, Ermənistanı iqtisadi kollapsa aparır. Paşinyanın proqramı, Ermənistanı təcriddə saxlayan digər proqramlar kimi, uğursuzluğa məhkumdur. Deməli, ictimaiyyətdə neqativ əhval-ruhiyyə güclənəcək və yeni kumir axtarılacaq".

Ekspertin sözlərinə görə, Ermənistanın "potensial" baş naziri onun təbiətcə fəraridir, buna görə də, seçiləndən sonra hara qaçacağını bu başdan demək olduqca çətindir. Dağlıq Qarabağda siyasi durum Nikol Paşinyandan asılı olmayacaq. Çünki Paşinyan hakimiyyətdə qalmayacaq.

Ekspert onu da vurğulayıb ki, baş nazirin müharibə elanı kimi fikirlər səsləndirməsi və dərhal Qarabağa baş çəkməsi, Ermənistanın yeritdiyi siyasət fonunda, heç də təəccüblü deyil. Ola bilər ki, Paşinyan əhalinin əhval-ruhiyyəsinə uyğun hərəkət edir və elan edir ki, erməni siyasəti dəyişməzdir və Ermənistanın düşdüyü bərbad vəziyyət Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Və bu gün bu problemlərin həllinə ümid edən Paşinyan növbədənkənar seçkilərin keçirilməsini istəyir. Artıq Paşinyan gələn ilin may ayında seçkilərin keçirilməsini elan edib. Lakin bütün bunların ən başlıca səbəbi, Ermənistanın baş nazirinin küçə "demokratı"nın dialoq mədəniyyətindən çox-çox uzaq olması, onun kobud, yöndəmsiz və radikal ritorikaları Ermənistanın quyusunu daha dərin qazmaqdan başqa heç nəyə xidmət etmir. Bununla, o da özünü, bütövlükdə, fəlakətə sürükləyir. Sözsüz ki, bütün bunlar Moskvada, yumşaq desək, məmnunluq yaratmır və Paşinyan iqtidarı üçün "x günü"nü yaxınlaşdırır...

**A.SƏMƏDOVA**

### Ermənistandakı aksiyalara sahibkarlar da qatılıb



Ermənistanın Armavir vilayətinin üzüm istehsalçıları təkrar etiraz aksiyasına çıxıblar. SİA-nın erməni mətbuatına istinadən xəbər verir ki, onlar üzümün emal müəssisələrinə qəbul qiymətlərini 140 dramdan 160 dramadək artırılmasını tələb edirlər. Etiraz aksiyasının iştirakçılarını Armavir vilayətinin rəhbəri Qaqik Miricanyan qəbul edib. Vilayət rəhbəri növbəti illər üzrə layihələndirmələrdə ən aşağı qiyməti nəzərə alacaqlarını barədə təklif səsləndirib.

Qiymətlərin aşağı olmasından şikayət edənlərdən biri erməni hökumətinə 3 variant təklif edib. O, qeyd edib ki, özəlləşdirilən müəssisələr geri dövlət balansına qaytarılmalı və yeni rəqabət yarada biləcək üzüm emalı müəssisələri yaradılmalıdır. Və ya Gürcüstandakı kimi dövlət üzüm istehsalı sahəsinə subsidiyalar ayrılmalıdır. Bununla da sahibkar verdiyi 140 dramdan əlavə dövlət 20 dramı ödəyəcək. Üzüm istehsalçıları həmçinin 200 min ton üzüm istehsalı barədə rəsmi rəqəmlərin yalan olduğunu da vurğulayıb.

### Kim Çen In ABŞ-a məktub göndərib



KXDR lideri Kim Çen In Cənubi Koreyanın xüsusi nümayəndəsindən ABŞ hökumətinə məktub çatdırmağı xahiş edib. AZƏRTAC Yonhap informasiya agentliyinə istinadla xəbər verir ki, Cənubi Koreyanın xüsusi nümayəndəsi Pxenyanda keçirilən görüş zamanı Prezident Mun Ce-inin məktubunu KXDR liderinə verib. Görüşdən sonra xüsusi nümayəndə Kim Çen Inın Koreya yarımadasının nüvəsizləşdirilməsi məsələsində irəliləyişin olmaması barədə Vaşinqtonun fikri ilə razılaşmadığını bildirib. KXDR lideri, həmçinin qeyd edib ki, Phunqeri poliqonunun ləğv olunması ölkəni praktiki olaraq yeni nüvə sınaqları keçirmək imkanından məhrum edib. Onun sözlərinə görə, dünya ictimaiyyəti Pxenyanın atdığı addımları layiqincə qiymətləndirmir. Kim Çen In, eyni zamanda, Donald Trampın 2021-ci ilin yanvarında prezident səlahiyyətləri bitənədək yarımadada vəziyyətin nizamlanması prosesinin başa çatacağına və ABŞ-la münasibətlərin yoluna qoyulacağına hələ də ümid etdiyini deyib.

### Qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı 68 əcnəbi saxlanılıb

Son üç gün ərzində Dövlət Miqrasiya Xidməti (DMX) tərəfindən qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı 68 əcnəbi saxlanılıb. DMX-dən AZƏRTAC-a bildiriblər ki, saxlanılmış əcnəbilərdən 11-nin qanunsuz əmək fəaliyyəti ilə məşğul olduqları, 5-nin qeydiyyat ünvanı üzrə yaşamadıqları, digər 52 nəfərin isə ölkə ərazisində qanunsuz yaşadıqları müəyyənləşdirilib.

Onlardan 48 nəfər barəsində inzibati qərarlar qəbul edilib. Digər əcnəbilərin Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılması istiqamətində müvafiq tədbirlər görülür. DMX qanunsuz miqrasiyaya qarşı mübarizə tədbirlərini davam etdirir.

# Azərbaycan uğurlu inkişaf modelinə malik dövlətdir

*Dövlət başçısının Fərmanı ilə "Mərkəzləşdirilmiş elektron-informasiya sistemi" yaradılacaq*



Dünyada iqtisadi qüdrəti ilə seçilən Azərbaycan innovativ texnologiyalardan istifadə imkanları ilə də fərqlənir. Dövlət başçısı tərəfindən Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər, davamlı olaraq, həyata keçirilir. Həyata keçirilən dövlət proqramları, layihələr, islahatların nəticəsi olaraq informasiya texnologiyalarının geniş tətbiqinə yeni imkanlar açılıb. Artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb. Prezident İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə, nəinki elektron hökumətin inkişafı, həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı. Bu gün ölkəmizdə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bütün bunlarla yanaşı, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, vahid məkandan və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradıldı ki, bu da qısa müddətdə özünü doğrultdu. Bu, onu göstərir ki, Azərbaycan uğurlu inkişaf modedlinə malik dövlətdir.

Göründüyü kimi, ölkəmizdə modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması məqsədi ilə əhaliyə göstərilən xidmətlərin elektron qaydada həyata keçirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb və bu, davam etməkdədir. Ötən gün əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyev Fərman imzalayıb. Fərmana əsasən, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturuna daxil olan bir sıra qurumların fəaliyyətinin səmərəliliyinin artırılmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sistemləri əsasında "Mərkəzləşdirilmiş elektron-informasiya sistemi" yaradılacaq. Fərmanda qeyd olunur ki, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qurumun fəaliyyət istiqamətləri üzrə əhaliyə göstərilən xidmətlərin vahid platforma üzərindən elektron formada təqdim edilməsi məqsədi ilə "e-sosial" internet portalının (bundan sonra - Portal) üç ay müddətində yaradılmasını təmin edəcək. Portal vasitəsilə aparılan əməliyyatların və fərdi məlumatların təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Xüsusi Dövlət-Mühafizə Xidməti ilə birlikdə tədbirlər həyata keçirəcək.

Sənəddə o da qeyd olunur ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi pensiya təyinatının avtomatlaşdırılmasına, bu sahədə xidmətlərin elektron qaydada göstərilməsinə və vətəndaşların sosial sığorta stajının müəyyən edilməsinə dair qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlayaraq, Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək.

Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində xidmətlərin elektron qaydada həyata keçirilməsi istiqamətində Cənab Prezidentin Fərmanı əhaliyə göstərilən xidmətin keyfiyyətinin daha da yüksəldilməsində növbəti bir addımdır.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Turizmin və sahibkarlığın inkişafına dair sistemli və kompleks tədbirlər həyata keçirilir

"Son illər respublikamızda turizm sahəsində əldə olunan nailiyyətlər dövlət siyasətinin uğurla həyata keçirilməsi zəminində baş verir. Ölkəmizdə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, hüquqi-normativ aktların qəbul edilməsi, müasir turizm infrastrukturunun yaradılması sahəsində görülən məqsədyönlü işlər öz nəticəsini verir. Azərbaycan Prezidenti İlham Əliyevin ölkə iqtisadiyyatına neft sektoru tərəfindən gələn gəlirdən daha artıq gəlir gətirə biləcəyi turizmin inkişafını zəruri hesab etməsi, real faktlara əsaslanır".





Bunu "BF-Group" şirkətinin rəhbəri Aydın Əhmədov "Səs" qəzetinə verdiyi açıqlamasında bildirib: "Lahıc qəsəbəsinə təbii qazın verilməsi mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin qeyd etdiyi kimi, turizm Azərbaycanda prioritet istiqamətlərdən biridir. Bu sözlər bir daha qarşımızda böyük prespektivlər açır və biz sahibkarların məsuliyyətini artırır. Ölkənin yerləşdiyi mühüm strateji mövqedən yararlanaraq uğurlu beynəlxalq iqtisadi layihələrin reallaşdırılması, iqtisadi və dövlət idarəetmə aparatında aparılan struktur islahatları ölkədə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən, sahibkarlıq sektorunun inkişafına güclü təkan vermişdir. Bu baxımdan, Azərbaycanda turizmin və sahibkarlığın inkişafına xüsusi diqqət göstərilir, sistemli və kompleks tədbirlər həyata keçirilir. Həyata keçirilən tədbirlər isə, təbii ki, bizlərə dəstək üçün nəzərdə tutulub və ümumilikdə, ölkə iqtisadiyyatının inkişafına hesablanıb. Dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, sahibkarların maarifləndirilməsi və onların işgüzar əlaqələrinin inkişafı istiqamətində davam etdirilən məqsədyönlü tədbirlər nəticəsində, ölkə iqtisadiyyatında özəl sektorun faiz tərkibi artır, eyni zamanda, əhalinin məşğulluğunun təmin olunmasına yol açır. Ölkə iqtisadiyyatının inkişafı, turizm sahəsinə də öz təsirini göstərir. Bu gün dünyanın bir çox ölkələrində aparıcı sənaye sahəsinə çevrilən turizm Azərbaycanda da sürətlə inkişaf etməkdədir. Azərbaycanın turizm sahəsində rəqabət imkanları çox yüksəkdir. Əminliklə deyə bilərik ki, dövlətin turizmə yaxından diqqəti və qayğısı, eləcə də, bizlərin üzərinə düşən vəzifələrin yüksək səviyyədə icrası bu sahənin gələcək inkişafına daha böyük imkanlar yaradacaq və yeni nailiyyətlər əldə olunacaqdır".



**ZÜMRÜD**

# "Nazirlər Kabinetinin kartof idxalına tətbiq etdiyi yeni gömrük tarifləri toxumluq kartofa şamil olunmur"

***Nazirlər Kabinetinin kartof idxalına tətbiq etdiyi gömrük tarif dərəcələrinin artırılması ərzaqlıq kartofa şamil olunub. Burada məqsəd daxili bazarı qorumaq, yerli istehsalı dəstəkləmək, fermerlərin maraqlarını müdafiə etməkdir. Bunu AZƏRTAC-a açıqlamasında Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdirinin müavini Vüqar Hüseynov deyib.***

Yeni tarif dərəcələrinin toxumluq kartofa şamil olunmadığını bildirən Vüqar Hüseynov qeyd edib ki, ölkədə kartof istehsalının həcmi daxili tələbatı tam təmin etməyə imkan verir, hətta daxili tələbatdan daha çox kartof istehsal olunur: "Qonşu İran və Türkiyədə milli valyutaların dəyərdən düşməsi ixracatı stimullaşdırıb, sahibkarlar məhsullarını xarici bazarlarda satmağa üstünlük verirlər. Milli valyutası sabit olan Azərbaycan bazarı İran və Türkiyənin kənd təsərrüfatı məhsulları ixracatçıları üçün cəlbedicidir, lakin bu, yerli istehsalçıların maraqlarına ziddir. Yəni, fermer aylarla əziyyət çəkib kartof becərir, İran və Türkiyədən kartof idxalı isə onların əziyyətini heçə endirir. Dövlətin də vəzifəsi, ilk növbədə, yerli istehsalçıların maraqlarını müdafiə etməkdir. Nazirlər Kabinetinin qərarı da buna xidmət edir". Problemin təkcə xaricdən kartof idxalı ilə bağlı olmadığını vurğulayan nazirlik rəsmisi



bildirib ki, söhbət vasitəçilərdən, fermerdən sahədə məhsulu ucuz alıb bazarlarda baha satan dəllallardan, işbazlardan gedir: "Onlar İrandan ucuz kartof gətirməklə yerli istehsalçını fakt qarşısında qoyur və onun məhsulunu dəyər-dəyməzinə satın alırlar. Nazirlər Kabinetinin qərarı isə vasitəçilərin qarşısında fermerin mövqeyini daha da gücləndirmiş olacaq".

Vüqar Hüseynov onu da əlavə edib ki, Nazirlər kabinetinin qərarı cəmi iki ay müddətinə, yeni məhsul yığımının yekunlaşdığı, sahələrdən topdansatışların ən çox həyata keçirildiyi sentyabr-oktyabr aylarını əhatə edir. Bu qərarın növbəti aylarda qüvvədə olması elə bir əhəmiyyət kəsb etmir, çünki kəndli öz məhsulunu bu iki ay ərzində artıq satmış olacaq. Qəbul olunan qərar kartofun yalnız topdansatış qiymətinə təsir etmiş olur, pərakəndə satışa isə təsir etmir. Çünki vasitəçilərin (işbaz, dəllal, fürsətcil və s.) kəndlidən sahədən aldığı kartofun qiyməti ilə bazarda pərakəndə satışda realizə etdiyi qiymət arasında 2-3, bəzən 4 dəfə fərq olur. İndiki situasiyada vasitəçi fermerdən məhsulu daha baha almalı olacaq, qiyməti az da olsa fermer diktə edəcək, pərakəndə satış qiyməti isə indiki səviyyədə qalacaq. Həttа məhsulun bolluğu pərakəndə satış qiymətlərini daha da ucuzlaşdıra bilər".

# Xarici qüvvələrə işləyən partiyalar cəzasız qala bilməz

## Əli Orucov: "Hansısa müxalif partiya xaricdən bu və ya digər şəkildə maliyyə dəstəyi alırsa, bunu hüquq-mühafizə orqanları üzə çıxarıb tədbir görməlidir"

**Dağıdıcı müxalifətin milli və dövlətçilik maraqlarına zidd fəaliyyət yolu tutmaları ilə yanaşı, düşərgədaxili partiyalarla münasibətlərdə də anormal mövqe tuturlar. Müxtəlif blok və qurumların, yarandıqdan az sonra, dağılmasında da, AXCP və Müsavat kimi dağıdıcı xislətli partiyaların xüsusi rolu olub. Dəfələrlə iqtidar-müxalifət dialoqu keçirildiyi halda, AXCP və Müsavat partiyaları bu dialoqa qatılmayıblar.**

AMİP funksioneri Əli Orucov bizimlə söhbətində bunun səbəbini sözügedən partiyaların sağlam siyasət aparmaq gücünə malik olmaları ilə əlaqələndirib: "AMİP ölkədə dialoq və plüralizm mühitinin inkişaf etdirilməsinin və formalaşdırılmasının tərəfdarı olub. Bütün problemlər və ziddiyyətlər dialoqdan keçir. Bunun üçün də imkanlar var. Qarşıdurmalar və gərginliklər ölkədə nə qədər şiddətlənərsə, bir o qədər təhlükəli olar və düşmənlərimiz də, təbii ki, bunu arzulayır. Müxalifət təkcə AXCP və Müsavatdan ibarət deyil. İkincisi də, həmin partiyalar görsələr



və inansalar ki, iqtidar, həqiqətən də, dialoqun tərəfdarıdır və bu iradə var, o zaman onlar da bu prosesə maraq göstərərlər. Ona görə də, iqtidar-müxalifət dialoqu hamının istədiyi və maraq göstərdiyi addımdır. Bu addımı isə, ilk növbədə, hakimiyyət atmalıdır".

"Cəmiyyətdə milli birliyin möhkəmlənməsi hansısa xırda və iri problemlərin aradan qaldırılmasında bu cür görüşlərin keçirilməsi əhəmiyyətlidir. "Demək olarmı ki, bu gün müxalifət partiyalarının məqsədi adlarını müxalifət partiyası qoyaraq, xarici qüvvələrdən boş qalan ciblərini doldurmaqdır" sualına cavab olaraq, Ə.Orucov cavab verib ki, müxalifət partiyalarının maliyyələşdirilməsi qanunvericiliyə görə dövlət tərəfindən həyata keçirilir: "Əgər hansısa müxalif partiya xaricdən bu və ya digər şəkildə maliyyə dəstəyi alırsa, bunu hüquq-mühafizə orqanları üzə çıxarıb, tədbir görməlidirlər. Çünki xaricdən maliyyələşmək o deməkdir ki, həmin partiya ona pul verənlərin təsiri altına düşür və ölkəmiz üçün potensial təhlükə mənbəyinə çevrilir. Dövlət, fərq qoymadan, bütün siyasi partiyaları özü maliyyələşdirməlidir ki, nə daxili, nə də xarici sponsorların təsiri altına düşməyib, müstəqil fəaliyyət göstərə və dövlətin və xalqın maraqlarına xidmət edən qərarlar qəbul edə bilsinlər. Təəssüflər olsun ki, müxalifət partiyalarının fəaliyyəti o qədər ağırdır ki, hətta bir qismi xırda-para kommunal xərclərini belə ödəyə bilmir və bir qisminin oturmağa heç yeri də yoxdur. Bildiyiniz kimi, AMİP-in beynəlxalq əlaqələri geniş olduğumdan, tez-tez əcnəbi partnyorlarımızla birgə tədbirlər keçiririk. Lakin biz onları qərargahımıza dəvət edib, orda qəbul etməyə xəcalət çəkirik. Çünki utanırıq. Ona görə də, bir daha demək istəyirəm ki, biz iqtidarın düşməni yox, rəqibiyik. İnkişaf və tərəqqi isə düşmənçilik deyil, rəqabət olan yerdə mümkündür".

**GÜLYANƏ**

# Orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbulun nəticələri açıqlanıb

Tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbulun nəticələri elan olunub. Dövlət İmtahan Mərkəzindən (DİM) AZƏRTAC-a bildiriblər ki, abituriyentlər müsabiqənin nəticələri barədə məlumatı DİM-in internet saytından və ya iş nömrələrini bütün mobil operatorlardan 7727 nömrəsinə göndərməklə öyrənə bilərlər.

Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinin müsabiqəsində iştirak üçün 3.312 abituriyent ixtisas seçimi edib. Müsabiqə nəticəsində 1.386 nəfər orta ixtisas təhsili müəssisələrinə qəbul olunub. Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olunanların siyahısı "Abituriyent" jurnalının xüsusi buraxılışında dərc ediləcək. Orta ixtisas təhsili müəssisələrinə qəbul olunan abituriyentlər sentyabrın 7-dən 12-dək sənədlərini müvafiq təhsil müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidirlər (abituriyentlər qeydiyyat zamanı tələb edilən sənədlərin siyahısını qəbul olunduqları təhsil müəssisələrindən öyrənə bilərlər). Həmin müddətdə qeydiyyatdan keçməmək abituriyentin müvafiq ixtisasa yerləşdirilməsindən imtina etməsi kimi qiymətləndiriləcək və onun qəbul haqqında əmri tədris müəssisəsinə göndərilməyəcək.

# Bakıda Beynəlxalq Elektron Ticarət Forumu keçiriləcək




Sentyabrın 24-25-də Bakıda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşəbbüsü, Avropa İttifaqının və BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının dəstəyi ilə Elektron Ticarət Forumu keçiriləcək. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, "Bakı E-ticarət Forumu 2018" adlanan beynəlxalq tədbirdə 300-dən çox yerli və xarici nümayəndənin iştirakı gözlənilir.

İlk dəfə Azərbaycanda elektron ticarət, elektron ödəniş və logistika xidmətlərini həyata keçirən kiçik və orta sahibkarları, startapları, həmçinin bu sahənin müxtəlif aspektlərinin inkişafı ilə məşğul olan dövlət orqanlarını və beynəlxalq inkişaf agentliklərini bir araya gətirəcək forum Azərbaycanda elektron ticarətin inkişafına təkan vermək məqsədi daşıyır. Forum regionda elektron ticarətin inkişafı üçün müvafiq tövsiyələri nəzərdən keçirmək və praktik tətbiq imkanlarının müəyyən edilməsi üzrə beynəlxalq platforma rolunu oynayacaq.

Beynəlxalq tədbir çərçivəsində elektron ticarətin inkişafı üçün BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı tərəfindən müəyyən edilmiş 7 əsas istiqamət üzrə müxtəlif sessiyalar təşkil olunacaq. Sessiyalarda Avropa İttifaqı, Dünya Bankı, Ümumdünya Ticarət Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Ticarət Mərkəzi, Beynəlxalq Telekommunikasiya İttifaqı, Ümumdünya Poçt İttifaqı və digər beynəlxalq təşkilatların nümayəndələri və elektron ticarətin inkişafı üzrə tanınmış beynəlxalq ekspertlər çıxış edəcək. Tədbir çərçivəsində e-ticarətlə məşğul olan yerli startapların sərgisi də təşkil ediləcək. Forumda iştirak etmək üçün www.bef2018.az rəsmi səhifəsində qeydiyyatdan keçmək tələb olunur.

# Fransa hökuməti qaçqın düşərgələrini ləğv edir



Fransız polisi ölkənin şimal hissəsindəki Grande-Synthe şəhərində 800 iraqlı qaçqının məskunlaşdığı çadır düşərgələrini ləğv edib. AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, düşərgənin ləğv olunması ilə bağlı işlərə səhər saatlarından başlanıb. Fransız mətbuatının yaydığı məlumata görə, ləğvetmə əməliyyatında 200 polis, yanğınsöndürənlər və təcili yardım əməkdaşları iştirak edib.

Grande-Synthe şəhər polisindən bildiriblər ki, düşərgədən çıxarılan qaçqınlar araşdırıldıqdan sonra ölkədən deportasiya olunacaq. Fransadan çıxarılan qaçqınlar qeyri-qanuni yolla Böyük Britaniyaya keçməyə çalışırlar. Fransanın müvafiq dövlət qurumları ölkə ərazisində qaçqın düşərgələrinin artmaması üçün tədbirləri gücləndirib.



# "Siyasi ulduz" növbəti 3 pərdəli "tragediya" hazırlığında

**RƏFİQƏ**

**Atalar demişkən, "qozbeli qəbir düzəldər". Yerində, məqamında deyilib. Bu günlərdə "REAL" təşkilatının sədri İlqar Məmmədov, həbsdən bir ay bundan öncə çıxmasına baxmayaraq, tez-tələsik mətbuat konfransı keçirib. Çıxışları da əttökən. Görünür, "Babam mənə kor deyib, gələni-gedəni vur deyib" ibrətamiz atalar sözlərini siyasətin "yeni ulduz"u hələ də bu yaşına kimi anlamayıb. Anlamamaqla yanaşı, adaptasiya da olunmayıb. O zaman xoruzlanmaq nəyə lazım? Və siyasi meydanda özünə "alternativ" görmədiyini söyləyir. Bu yerdə "Bəxt üzüyü" filmində Moşunun sözü yadıma düşür: "Ayə, qoymayın, üstümə İrasim gəlir". Kimin üstünə?**

## "Yeni ulduz"un 3 pərdəli "tragediyası"

Bu da siyasətin "yeni ulduz"u İ.Məmmədovun mətbuat konfransında 3 pərdəli "tragediyası". Mətbuat konfransına yığışan "aktiv" insanlar onun həbsdən sonra hazırladığı "tragediyası"nın "əsas sujet xəttinin" nədən ibarət olacağı ilə maraqlanırdılar və burada bir sıra suallara cavab tapacaqlarını düşünürdülər. Ancaq görünür, olmadı. İ.Məmmədovu qəbul etməyən dairələrin mətbuat sözçüləri (onlara bəzən "trollar" da deyilir) öz qənaətlərində daha da dəqiq oldular: "Ondan heç nə olmayacaq, ciddi fiqur deyil" deyərək İ.Məmmədovu tənqid atəşinə tutanlar da oldu. Onlar İ.Məmmədovun həbsxanadan "sınıb çıxdığını" da vurğuladılar.

## Düşərgədə İlqar Məmmədovun çıxdaş olunması planları

Mətbuat konfransında özlərini müxalifətin "anası" hesab edən siyasi təşkilat rəhbərlərinin kürkünə birə düşübmüş kimi, başladılar İ.Məmmədovun planlarına nail olmaması üçün çıxış yolu axtarmağa.

Ancaq "REAL" da iki ayağını bir başmağa dirəyərək, "müxalifəti dəyişdirəcəyəm" iddiasını irəli sürməyə başladı. Bu arada, "REAL" partiyasının idarə heyətinin üzvü Natiq Cəfərlinin də müxalifətin zəifliyini və uğursuzluğunu, bilavasitə ənənəvi "liderlərin" günahının olması ilə əlaqələndirməsi AXCP və Müsavatı "cin atına" mindirib. N.Cəfərlinin "AXCP və Müsavat kimi partiyalar öz tərəfdarları ilə yanaşı, hər kəsi özününküləşdirməyə çalışır. Biz ölkədə hamını bir araya gətirəcəyik, hamını qucaqlayacağıq, hamını "REAL" partiyasının üzvü edəcəyik" deməsi Əli Kərimlini və Arif Hacılını özündən çıxarıb.

İndi qaldı siyasətin "yeni ulduzu"nun növbəti "tragediya"sına bir-birini həzm etməyən düşərgə "liderlərinin" cavabı nə olacaq? Hər şeyi isə zaman göstərəcək...

# Efiopiya 20 ildən sonra Eritreyada yenidən səfirliyini açıb



Efiopiya 20 ildən sonra Eritreyanın paytaxtı Əsmərada yenidən səfirliyini açıb. AZƏRTAC xəbər verir ki, rəsmi açılış mərasimində Eritreya Prezidenti İsayas Afevorki və Efiopiyanın Baş naziri Abiy Əhməd iştirak ediblər.

Xatırladaq ki, 1998-ci ilin mayında baş vermiş sərhəd münaqişəsi səbəbindən iki ölkə arasında diplomatik münasibətlər pozulub. Bu il iyulun 8-də Efiopiyanın Baş naziri A.Əhməd Əsmərada Eritreya Prezidenti ilə görüşərək ərazi mübahisəsinin nizamlanmasına dair danışıqlar aparıb, nəticədə sülh və dostluq barədə birgə bəyannamə imzalanıb. Bundan əvvəl, iyulun 16-da Eritreya dövləti Efiopiyada öz diplomatik missiyasını yenidən açıb.

# Paşinyan-Koçaryan üzərində çalxalanan erməni mətbuatı

*Bu suallara cavab axtarılır: Putinin təbriki erməni ictimaiyyətində necə bomba effekti yaratdı və niyə Paşinyana Soçidə çətin olacaq?*



***Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun bəyan etdiyi kimi, Ermənistan qaynayır. Adıçəkilən rusiyalı siyasi xadimin fikirləri kontekstindən çıxış edəcək, həqiqətən də, Ermənistanda siyasi böhranın mövcudluğu açıq-aydın görünməkdədir. Köhnə hakimiyyət sisteminin yeni hökumətlə, necə deyərlər, kəllə-kəlləyə gəlməsindən başlayaraq, digər bəlli hadisələrə qədər cərəyan edən olaylar, gec, ya tez, kəskin qarşıdurmanın baş verəcəyi reallığını daha da açığa çıxarmış olur. Serj Sarkisyanın devrilməsinin ardınca, Robert Koçaryanın siyasi arenaya atılması, onun pasportunun əlindən alınması və s. hadisələr, istər-istəməz, erməni cəmiyyətində parçalanmalara səbəb olmaqdadır.***

Xüsusilə, erməni kütləvi informasiya vasitələri bu və ya digər şəkildə həm Koçaryan, həm də Paşinyan ətrafında müxtəlif gedişlər edərək, ölkənin hələ də yekdil siyasi dayaqlara əsaslanmadığını bariz şəkildə nümayiş etdirməkdədirlər. Bu arada, Rusiya prezidenti Vladimir Putinin Robert Koçaryana ad günü ilə bağlı ünvanlanan təbrik məktubunun Kremlin rəsmi saytında işıqlandırılması erməni ictimai rəyinin təəccübünə səbəb olub. Bu, həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, Ermənistanda günü-gündən artan anti-Rusiya meyilləri, artıq öz “bəhrəsini” verməkdədir...

## “Hraparak”: “Bəziləri bunu Nikol Paşinyana tərs şillə kimi qəbul etdilər”

Bəzən cüzi görünən hadisələr erməni cəmiyyətində partlayan bomba effekti yaradır. Məhz bu dəfə də belə oldu - Kremlin rəsmi saytında Vladimir Putinlə Robert Koçaryan arasındakı telefon danışığı həmin bomba effektini doğurmuş oldu. “Rusiya prezidenti Koçaryanı səmimi şəkildə təbrik edib” deyə erməni KİV-ləri yazır. “Hraparak” qəzeti bu məsələ ilə bağlı yazır: “Bəziləri bunu Nikol Paşinyana tərs şillə kimi qəbul etdilər, digərləri xatırladılar ki, Putinin Koçaryana təbrikləri onun prezidentliyi dövrünə təsadüf edib və qeyd olunub ki, iki ay öncə, Serj Sarkisyanın da ad günü olub və Putin onu təbrik etməyib. Halbuki Sarkisyanın mövcud vəziyyətdə dəstəyə daha çox ehtiyacı var”.

## “Haykakan Jamanak”: “Koçaryan öz hakimiyyəti illərində Ermənistanın Rusiyanın əyaləti olması və suverenliyin sıfırlanması üçün hər şey edib”

Mövzu ilə bağlı digər erməni qəzeti - “Haykakan Jamanak” isə yazır ki, Robert Koçaryanın fəallaşması son vaxtlar, sözün əsl mənasında, onun dərin əyalət düşüncəsini daha çox ortaya qoyur: “Koçaryan öz hakimiyyəti illərində Ermənistanın Rusiyanın əyaləti olması və suverenliyin sıfırlanması üçün hər şey edib. Bu, belə demək mümkündürsə, akademik əyalətçiliyin açıq nümunəsidir və bir ölkənin rəhbəri nə qədər zəif, nə qədər kompetentlikdən kənar olmalıdır ki, rəhbərlik etdiyi dövlətin daxili resurslarını taparaq, onun təhlükəsizliyini və inkişafını təmin etməsin. Eyni zamanda, o, heç bir cəhd göstərməyərək, başqa ölkənin quberniyası və əyaləti olmağa çalışıb. Və başqa ölkənin rəhbərindən “dobro” alaraq, özünü knyazcıq, ya da mövcud quberniyanın kəndxudası kimi hiss edib. Əyalətin əhalisinin qiyam qaldırmaması üçün o, külli miqdarda vəsaitlər xərcləyərək, polis diktaturası yaradıb. Cavab vermək zamanı gələndə isə, Koçaryan “mərkəzdən” imdad diləyir və əlbəttə ki, nə isə əldə edir - məsələn, Rusiyanın prezidenti Vladimir Putindən ad günü ilə bağlı “səmimi təbriklər”. Lakin bu kimi məlumatlar Koçaryan üçün nə qədər xoş olsa da, Ermənistanın suverenliyi məsələsində bir sıra problemlər yaradır, bəzi hallarda, anti-Rusiya meyillərini artırır, təbii ki, ictimai rəy arasında lüzumsuz qeyri-sabitlik yaradır. Koçaryanı isə belə şeylər maraqlandırmır”.

## “Aravot”: “Koçaryan seçkilərdə qazandığı səslərini layiqi olduğu qədər “alın təri” ilə qazanmış olacaq”

“Aravot” qəzetinin baş redaktoru da sözügedən məsələyə öz mövqeyindən yanaşaraq yazır ki, Robert Koçaryan, nəinki siyasətə geri dönür, hətta qarşıdan gələn parlament seçkilərində iştirak etməyə belə hazırlaşır: “Bu addımı mənim baxışımca, kimin bu xadimə qarşı münasibətinin necə olmasından asılı olmayaraq, alqışlamaq olar. Bu, ikinci prezident üçün reytinqinin nə qədər olması baxımından, yaxşı “testdir”.

Qarşıdan gələn seçkilərdə onun administrativ rıçaqları olmayacaq, o, kimisə təhdid edəcək, nə də kiməsə təzyiq göstərəcək, KİV-ləri bağlaya bilməyəcək və seçki rüşvətləri paylamayacaq. Beləliklə, Koçaryan seçkilərdə qazandığı səslərini layiqi olduğu qədər “alın təri” ilə qazanmış olacaq”.



## “Joxovurd”: “Rusiya tərəfinin Ermənistanda baş verənlərdən razı olmadığı görünməkdədir”

Erməni KİV-ləri, yuxarıda da qeyd edildiyi kimi, yalnız Robert Koçaryanla bağlı deyil, baş nazir Nikol Paşinyan ətrafında da var-gəl edir ki, burada daha çox onun tənqid olunması nəzərə çarpır. Daha dəqiq desək, xarici siyasətində ard-arda buraxdığı səhvlərin baş nazirə baha başa gələcəyi ilə bağlı xəbərlər də erməni mətbuatında yer almaqdadır. “Paşinyanı Putinlə çətin görüş gözləyir” başlıqlı yazıda “Joxovurd” qəzeti yazır ki, Ermənistanın baş naziri Nikol Paşinyan işgüzar səfər çərçivəsində Rusiyaya yollanacaq. “Moskvada onun Rusiyanın prezidenti Vladimir Putinlə görüşü planlaşdırılır” deyə məqalədə belə bir eyham vurulur ki, erməni baş nazirin Rusiyaya səfəri Azərbaycan Prezidenti İlham Əliyevin Vladimir Putinlə görüşündən sonraya təsadüf edir: “Məlum olduğu kimi, sentyabrın 1-də Putin və İlham Əliyev Dağlıq Qarabağ məsələsi ətrafında fikir mübadiləsi apardılar. Təxmin edilir ki, bu mövzu Putin-Paşinyan görüşündə də müzakirə predmeti olacaq. Belə ki, Dağlıq Qarabağ münaqişəsi yavaş-yavaş gündəmə dönməkdədir. Və baxmayaraq ki, Paşinyan -İlham Əliyev görüşü, hələ ki, gözlənilmir, ancaq görünən budur ki, Rusiya bu məsələdə əllərini yana salaraq, boş oturmayacaq. Bütün hallarda, bu ölkə sözügedən prosesin irəliləməsi üçün müəyyən cəhdlər göstərəcək”.

Adıçəkilən erməni mətbuatı, eyni zamanda, yazdığına görə, ehtimal olunur ki, Putin-Paşinyan görüşünün əsas mövzularından biri də Ermənistanda baş verən daxili siyasi vəziyyətin müzakirəsi olacaq: “Xüsusilə, 1 mart hadisələri ilə bağlı açılmış cinayət işi və bu istiqamətdə keçmiş yüksək rütbəli məmurların, o cümlədən, Ermənistanın ikinci prezidenti Robert Koçaryanın istintaqa cəlb edilməsi məsələsi ətrafında söhbətlər aparılacaq”.

“Baxmayaraq ki, Rusiya XİN-in rəhbəri Sergey Lavrov bu məsələnin Ermənistanın daxili işi olduğunu bəyan edib, Rusiya tərəfinin Ermənistanda baş verənlərdən razı olmadığı görünməkdədir” deyə yazan “Joxovurd” iddia edir ki, Paşinyanla Putinin görüşü erməni baş nazir üçün heç də asan olmayacaq.

## “168 jam”: “Nikol Paşinyanı kifayət qədər sərt gündəm gözləyir”

Paşinyanın Rusiyaya səfəri ilə bağlı digər erməni nəşri - “168 jam” da eyni mövqedən çıxış edib və iddia olunub ki, bu görüşdə Paşinyanı çətin sınaqlar gözləyir. Hətta qeyd olunur ki, görüş çox sərt ab-havada müşayiət oluna bilər. Belə ki, erməni ictimai rəyində Rusiya əleyhinə səslənən fikirlər və həmin fikirlərdən doğan tələblər heç də Kremlin Ermənistanla bağlı maraqlarına cavab verməməkdədir. “Bizim əldə etdiyimiz məlumatlara görə, Nikol Paşinyanı kifayət qədər sərt gündəm gözləyir - Robert Koçaryana qarşı açılmış cinayət işi, KTMT prosesində baş verənlər və s.” deyə yazan erməni nəşrinə görə, həmin görüşdə Azərbaycanla da bağlı fikirlər səslənəcək: “Azərbaycanın KTMT-yə, hələlik, müşahidəçi qismində üzv olmasına istiqamətlənmiş danışıqlar olacaq”.

Qeyd edək ki, Nikol Paşinyanın zəif bəndi kimi göstərilən daha bir amil, məhz Azərbaycanın KTMT-yə üzvlük ehtimalının gündəmə gəlməsi oldu və erməni siyasi adamları bu məsələ ətrafında təlaşlarını gizlətmədilər. Hər halda, erməni KİV-lərinin sözügedən məsələyə də diqqət çəkməsi, artıq növbəti siyasi məğlubiyyətin etirafı olaraq da qiymətləndirilə bilər.

Beləliklə, hazırda Ermənistanda baş verənlər bu ölkənin idarəçilik sistemindən tutmuş digər sahələrinə qədər mənfi tendensiyalarla müşahidə olunmaqdadır. Bu tendensiyaların artacağı, hətta çərçivədən çıxaraq, daha ağır nəticələrə doğru istiqamət alacağı isə daha çox gözlənilir. Xüsusilə, Robert Koçaryanın siyasətə qayıtması dönməsi fonunda Paşinyanın Rusiya səfəri və onun həmin səfərdən əliboş dönməsi ehtimalı elə erməni mediasında işıqlandırılan eyhamlı yazılardan da görünməkdədir.

**Rövşən NURƏDDİNOĞLU**

# AXCP-nin "REAL"-a qarşı planları nədir?

*Əli Kərimli yeni hücum planı üzərində işləyir*

***Həbsdən azad olunmuş "REAL" partiyasının sədri İlqar Məmmədovun keçirdiyi və siyasi-ictimai rəydə birmənalı qarşılanmayan mətbuat konfransının ardınca, ona qarşı təmsil olunduğu düşərgədən hücumların ediləcəyi proqnozları da özünü doğrultmaqdadır. Xüsusilə, bu il keçirilmiş prezident seçkiləri zamanı AXCP sədri Əli Kərimlinin hələ o vaxtlar həbsdə olan İ.Məmmədova sosial şəbəkədə reytinq faizində uduzması faktı, artıq yeni müstəvidə savaş meydanına çevriləcək.***



## İlqar Məmmədovun debat qazanmaq şansı yoxdur

Əbəs deyil ki, "REAL" sədri sözügedən mətbuat konfransında ənənəvi düşərgədəki partiyalarla bağlı əməkdaşlıq fikirlərindən yayındı. Bunun əvəzinə isə iqtidarla debata çıxacağını deyərək, düşərgədaxili reytinqinə xal toplamağa cəhd etdi.

Düzdür, İ.Məmmədovun hakim partiyanın istənilən siyasətçi üzvü ilə belə, debata çıxmaq şansı, daha dəqiq desək, debatı qazanmaq şansı yoxdur. Çünki daha öncələr, o, bir dəfə debata çıxaraq, məğlub olmuşdu. Bu baxımdan, onun "debat məsələsi" yalnız özünə siyasi dividend qazanmaq məqsədi güdür.

## Lakin qayıdaq yenidən AXCP məsələsinə...

Əldə etdiyimiz məlumata görə, artıq AXCP düşərgədaxili olan-qalan rıçaqlarını saxlamaq üçün müdafiə deyil, hücum planı qurmaqdadır. Bu məqsədlə Ə.Kərimlinin yaxın ətrafı ilə bir neçə dəfə müzakirələr aparması barədə də informasiyalar var. Cəbhəçilərə yaxın olan mənbədən aldığımız xəbərə görə, bu dəfə də sosial şəbəkələr üzərindən "REAL"-a, yəni İ.Məmmədova qarşı savaş aparacağını gizlətməyən Kərimli, eyni zamanda, Avropadakı "siyasi mühacirləri" də bu işə qoşmağı planlaşdırıb.

## Əli Kərimli kimlərə və nə üçün maliyyə vəsaiti ayırıb?

Xüsusilə, milli xəyanətkarlar statusunu qazanmış Orduxan Teymurxanı, Tural Sadıqlını və Sevinc Osmanqızını öz tərəfinə cəlb etməkdən ötrü AXCP sədrinin onlara maliyyə ötürəcəyi ilə bağlı məlumatlar mövcuddur. Onların qarşısına qoyulan vəzifələrdən biri də İ.Məmmədova qarşı ekstəbliğat aparmaq məsələsidir. Eyni zamanda, Qənimət Zahidin də "Turan" TV vasitəsilə anti-"REAL" kampaniyasına qoşulmaq planları qüvvədə qalır. Məhz bu vasitə ilə apreldə keçirilən sosial sorğudakı məğlubiyyətinin əvəzini çıxacağını düşünən AXCP sədri mövcud planları vasitəsilə İ.Məmmədovu dalana sıxışdırmağa çalışır.

Ancaq daha bir maraqlı nüans yalnız AXCP sədrinin deyil, eyni zamanda, başqa müxalifət partiyalarının da "REAL" partiyasının sədrinə qarşı müsbət mövqe sərgiləmələridir.

## İstehza obyektinə çevrilmiş "üç hissəli" mətbuat konfransı

Misal üçün, VİP sədri Əli Əliyev, ADP sədri Sərdar Cəlaloğlu, Ağ partiya sədri Tural Abbaslı və başqaları da İ.Məmmədovun, artıq istehza obyektinə çevrilmiş "üç hissəli" mətbuat konfransındakı fikirlərini ciddi qiymətləndirmirlər. Buna misal olaraq, "REAL" sədrinin rəhbəri olduğu siyasi təşkilatın "cümhuriyyətçi" olmasını bir neçə dəfə təkrarlamasıdır. Halbuki bu gün ölkədə fəaliyyət göstərən bütün partiyalar da, iddia edirlər ki, sağ, yaxud sol, eləcə də, orta mərkəzçi olmasından asılı olmayaraq, onların hər biri "cümhuriyyətçilik" faktorlarına əsaslanırlar. İ.Məmmədovun isə özünü və partiyasını ayrıca "cümhuriyyətçi" kimi təqdim etməsi, əlbəttə ki, digər siyasi təşkilatların narazılığı ilə qarşılanmaqdadır. Bu baxımdan, onu qarşıda daha ağır hücumlar gözləyə bilər.

Beləliklə, "REAL" partiyasının sədri keçirdiyi ilk mətbuat konfransındaca, irəli sürdüyü qeyri-obyektiv fikirləri ilə özünü çətin vəziyyətdə qoyub. Bu vəziyyətdən istifadə edəcək, ən əsas siyasi təşkilat isə, yuxarıda adı çəkilən AXCP-dir. Hər halda, siyasi ictimaiyyət də başlanacaq AXCP-"REAL" siyasi savaşının nəticələrini görəcək.

***Rövşən RƏSULOV***

# Cinayətkar cəzadan yayına bilməz

*Xəyanət yolu seçən satqınlar bunu anlamır*

***Hər hansı bir kəs cinayət törədib, onu gizlətməklə cəzadan yayına bilər. Amma o cinayətin qorxusunu həyatının sonuna qədər yaşamağa məhkumdur. Dağıdıcı müxalifət düşərgəsi bu qorxu ilə yaşayır. Bu qorxu satqınlıqdan doğan bir qorxudur və kökündə, nə zamansa bu satqınçılığın açılması qorxusu dayanır.***



Müxalifət qorxulu yaşayır, özü də "Milli Şura" deyilən bir ölü qurumda. Çünki bu, o ölü qurumdur ki, satqınlar bir araya gələrək, "Milli Şura" yaratdı və erməni qanı ilə yoğrulan Rüstəm İbrahimbəyov xəyanətkarlığını bu ölü qurumda davam etdirdi. Daha sonra Cəmil Həsənli onun əməllərinə "sadiq" qalacağına and içdi və elə zənn etdilər ki, xalq onların keçmişini unudacaq. Dağıdıcı müxalifət, vaxt ötdükcə, xalqın onlardan üz döndərdiyini görmək istəmədiyini hələ də başa düşə bilmir və siyasi meydanı da tərk etmək istəmir. Çünki xarici qərəzli dairələrin siyasi sifarişlərini yerinə yetirməklə, ayrılan qrantları heç kəslə paylaşmaq niyyətində deyillər.

Bu gün xalq Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli, Leyla Yunus, Xədicə İsmayıl və bu kimi xəyanətkarların dəfələrlə Azərbaycanın maraqlarına zidd olan sövdələşmələrə getdiyini, ermənilərlə gizli sazişlər bağladığını və s. çox görüb.

## Dağıdıcı düşərgə "siyasi iflic" durumunda

Siyasi "fəaliyyətini" bütünlüklə, anti-Azərbaycan istiqaməti üzrə müəyyənləşdirmiş dağıdıcı müxalifət düşərgəsi bu gün artıq "siyasi iflic" durumundadır. Son bir neçə həftə ərzində dağıdıcı müxalifət düşərgəsinin nümayəndələrinin söylədiyi fikirlər, xarici qərəzli dairələrin mətbuat orqanlarına verdiyi müsahibələr və irəli sürdükləri absurd iddialar bir daha bu cür arzuolunmaz mövzuya qayıtmağı və reallığı olduğu kimi təsvir etməyi labüdləşdirir. Çünki dağıdıcı müxalifətdən olan Ə.Kərimli, İ.Qəmbər və digərləri müəyyən dairələrin qrantlarını və yardımlarını almaq üçün bütün norma və dəyərləri unudaraq, ən son variantlara belə əl atırlar. Burada əsas sezilən hərəkətlərin isə xəyanət üzərində qurulması cəmiyyət tərəfindən, birmənalı şəkildə qarşılanmır. Nəticədə, çətin durumda olan dağıdıcı düşərgə partiyaları, partiya rəhbərləri bir-birilərini xəyanətdə günahlandırırlar. Bu xəyanətlərin arasında AXCP daxilində baş verənlər, xüsusilə, diqqət çəkəndir. Belə demək mümkündürsə, xəyanət serialını xatırladan bu partiyada baş verənlərin cəmiyyətə açıqlamasında əsas rol elə düşərgə təmsilçilərinə aiddir. Dağıdıcı düşərgədə xəyanətləri dillərə dastan olmuş partiya sədrlərindən sayılan Ə.Kərimli haqqında öz keçmiş partiyadaşları, indiki şirdaşları da analoji fikirdədirlər. Hər kəsə bəllidir ki, bu gün Əli Kərimli radikal dini qruplarla da sıx münasibətdədir. Lakin bütün bunlara baxmayaraq, Ə.Kərimli, xalqa məhəbbətdən danışır. Digər bir fakt - Ə.Kərimli, hər dəfə deyir ki, Elçibəyin ruhu, sən demə, hələ də AXCP-nin qərargahında fırlanır. Fikirləşirsən ki, görəsən, o, qorxmur ki, bir gün bu ruh onun boğazından tutub haqq-hesab istəyəcək. Axı, ruhların intiqamı daha qorxulu olur.

Beləliklə, çıxartdığımız nəticə budur ki, Azərbaycan müxalifəti çox təəssüflər ki, müasir cəmiyyətlə ayaqlaşmaq imkanlarında deyil və zaman-zaman etdiyi xəyanətin təsirindən çıxa bilmir. Yuxarıda da göstərdiyimiz və Dostoyevskinin təsvir etdiyi kimi, cinayəti törədib, onun cəzasından qaçmaq mümkündür. Amma o cinayətin qorxusundan çıxmaq, əslа, mümkün deyil. Bu gün müxalifət cinayətinin və xəyanətinin qorxusu ilə baş-başa qalıb və müxalifət bir daha bunu anlamalıdır ki, cinayətkarlar cəzadan yayına bilməz.

***Rəfiqə HÜSEYNOVA***

# Bu gün ölkə ərazisində 36 dərəcə isti olacaq



Azərbaycanda sentyabrın 7-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 28-32° isti olacaq. Abşeronun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zuğulbada dəniz suyunun temperaturunun 24-25°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil və Şıxda isə 25-26° isti olacağı gözlənilir. Çimərliklərdə şimal-şərq küləyi əsəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, sentyabrın 7-də Abşeron yarımadasında sabit hava şəraiti gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir. Azərbaycanın rayonlarında hava yağmursuz keçəcək. Lakin axşama doğru bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı proqnozlaşdırılır. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 30-35° isti, dağlarda gecə 10-15°, gündüz 18-23° isti olacağı bildirilir.

Naxçıvan Muxtar Respublikasında hava yağmursuz keçəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 31-36° isti olacağı ehtimal edilir. Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Havanın temperaturu gecə 10-15°, gündüz 18-23° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava yağmursuz keçəcək. Havanın temperaturunun gecə 16-20°, gündüz 28-33° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var.

Havanın temperaturunun gecə 13-18°, gündüz 23-28° isti, dağlarda gecə 8-13°, gündüz 18-23° isti olacağı proqnozlaşdırılır.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 30-35° isti olacağı bildirilir. Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Havanın temperaturunun gecə 20-23°, gündüz 28-33° isti, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacağı ehtimal edilir. Respublikanın bölgələrində şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

# Modernləşmənin ailə hüquqlarına təsiri

***Ailə cəmiyyətin özəyini təşkil edir. Buna görə də cəmiyyətdə baş verən bütün sosial-iqtisadi və mədəni proseslər onun strukturuna və fəaliyyətinə birbaşa təsir edir. Sosioloq Əbülfəz Süleymanov yazır: "Ailə və onun əxlaqi səviyyəsinə iş kollektivində, yaşayış yerində və gündəlik həyatın bütün sahələrində sosial mühitin faktorları, bilavasitə təsir edir.***

Bu gün, xüsusilə, inkişaf etmiş Qərb ölkələrində müasir ailələr doğumun azalması, ailələrin stabil olmaması, boşanmaların artması, doğumdan imtinanın mövcud olması, ailəsiz uşaqların sayının durmadan artması və s. kimi problemlərin fonunda bir növ böhran vəziyyəti yaşayır. Təəssüflər olsun ki, bu proseslər Azərbaycan ailəsindən də yan keçməyib. Müasir ailələrin qlobal miqyasda gedən bu tendensiyanın təsirinə məruz qalması və aşınması bir sıra səbəblərlə əlaqəlidir. Qarabağ müharibəsi, qaçqın və məcburi köçkünlük həyatı, informasiya məkanındakı müxtəlif ideoloji ünsürlər fərqli dünyagörüşün və fərqli mədəniyyətlərin təbliği, Qərbə inteqrasiya meyili milli ailə dəyərlərinin aşınmasına, gənclərin və uşaqların psixologiyasına təsir göstərən amillərdir". Təsadüfi deyil ki, son illər bəzi Azərbaycan ailələrində qeyri-ənənəvi dəyərlərə meyillər yaranıb ki, bu da olduqca zərərli tendensiyadır. Bu hala uyğun gələn bir neçə məqamı göstərmək olar.

Azərbaycvn əhalisinin statistikasında göstərilir ki, son dövrlər boşanma, vətəndaş nikahları, nikahdan kənar doğum hallarının sürətlə artması narahatedici məqamlar arasında hesab olunur. Dövlət Statistika Komitəsinin rəsmi məlumatına görə, 2010-cu ildə ölkədə 79,3 min nikah və 8,9 min boşanma qeydə alınmışdır. Beləliklə, Azərbaycanda ötən il nikaha girənlərin təxminən 11 faizi boşanıb. Bu da son səkkiz ildə boşanma hallarının iki dəfə artdığını göstərir. Belə ki, 2002-ci ildə isə bu göstərici 5 faiz təşkil edib.

Statistik məlumatlara əsasən, son illər Azərbaycanda nikahdan kənar dünyaya gələn uşaqların sayında artım müşahidə olunur. Belə ki, rəsmi statistik göstəricilərə görə təkcə ötən il ölkədə 19 384 nikahdan kənar uşaq dünyaya gəlib. Bu uşaqların 9112-i şəhər yerlərində, 10 272-i isə kəndlərdə doğulub. Hətta bu uşaqların gələcəyi də çox böyük təhlükə altına düşməkdədir.

İnsanlar arasındakı qohumluq münasibətinin get-gedə soyuması və qohumluqdan irəli gələn bir sıra insani keyfiyyətlərdən (onların ziyarət etmək, imkansızlara əl tutmaq və s.) uzaqlaşma hiss olunur. Amma bəzi Qərb ölkələri ilə müqayisədə, onu da qeyd etmək olar ki, Azərbaycanda yaşlı nəsil Azərbaycan xalqının adət-ənənələrinə, tarixinə, mədəniyyətinə, əxlaqına xas olan nadir, əvəzsiz, belə dəyərə əsas verilərsə, yox olmaq həddində olan milli-mənəvi dəyərləri qoruyub-yaşatmaqdadır.

Ailədə mirasın bölüşdürülməsi zamanı ciddi problemlər yaşanır. Əgər əvvəllər miras daha çox oğlan uşağına və ya vəsiyyətnaməyə görə, göstərilən şəxsə düşdüyü zaman digər uşaqlar buna etiraz etmirdilərsə, amma son zamanlar bu hal övladlar arasında etiraza səbəb olur. Əsas məqsəd mirasdan mütləq pay almaq niyyətidir.

Keçid dövründə ailəyə daha çox təsir göstərən vasitələrdən biri də televiziyadır. Daha geniş mənada isə, KİV-dir. Belə ki, KİV-lər cəmiyyətdə, ailədə baş verən dəyişikliyə yad dəyərlərin formalaşmasında əsas rol oynayır. Araşdırmalar zamanı məlum olmuşdur ki, ailələrin 52,3%-i boş vaxtlarını televizora baxmaqla keçirirlər. Daha çox Cənubi Amerika və digər əcnəbi cəmiyyətlərinin dəyərlərini özündə əks etdirən filmlərin yayımlanması birbaşa ailəyə mənfi təsir göstərir. Çünki bu cəmiyyətlərdə formalaşan insan xarakteri, düşüncə tərzi ilə Azərbaycan mühitində formalaşan insan düşüncə tərzi arasında ciddi fərqliliklər vardır. Hamıya məlumdur ki, Azərbaycan cəmiyyətində mərkəz mövqedə duran, inkişaf edən insan hər zaman yüksək milli-mənəvi və əxlaqi dəyərlərə sahib olmuşdur. Hətta o filmlərdə əks olunan həyat tərzi ilə bizim həyat tərzimiz arasında ciddi ziddiyyət müşahidə olunur. Bunun nəticəsində, o filmlərə və verilişlərə baxan gənclərdə psixoloji dəyişiklik yaranır. Onların dünyagörüşünün fərqli istiqamətdə formalaşmasına, milli-mənəvi dəyərlərdən uzaqlaşmasına, maddi dəyərlərə daha çox üstünlük verməsinə və s. hallara səbəb olur. Əlbəttə, bütün bu nümunələrin sayını artırmaq olar. Amma bu və ya digər buna bənzər hallar hər bir insanı düşündürməyə məcbur edir. Çünki cəmiyyəti biz insanlar təşkil edir və cəmiyyətdə formalaşan hər hansı bir fikir, ilk növbədə, insan faktorunu önə çıxarır.

Ə.Süleymanovun fikrincə, Azərbaycan ailəsində problemlərin və ələlxüsus da, gündən-günə artan boşanmaların səbəbləri haqqında danışarkən, xüsusi qeyd etmək lazımıdır ki, bu gün onların əhəmiyyətli bir hissəsi geniş ictimaiyyətə təqdim olunduğu kimi, yalnız maddi problemlər, sonsuzluq, yaxud qısqanclıq və xəyanət kimi ənənəvi səbəblər ucbatından baş vermir. Şübhəsiz, bu amillərin təsiri danılmazdır. Lakin qeyd etmək lazımdır ki, prosesdə əksər hallarda diqqətdən kənar qalan, əhəmiyyətli olan bir çox yeni məqamlar da aşkara çıxır. Burada, xüsusilə, ər-arvad arasındaki münasibətlərdə özünü büruzə verən problemlər haqqında danışmaq lazımdır. Belə ki, əvvəlki illərdə ailələrin uzunömürlü olmasını təmin edən vacib şərtlərdən biri də bir çox məsələdə cütlərin bir-birinə güzəştə getməsi ilə bağlı idi. Bu, tərəflərin bir-birinə güzəştə getməsi və bir çox xırda məişət məsələsinin böyük ailə probleminə çevrilmədən üstündən keçilməsi ilə səciyyələnirdi. İndiki gənclərdə, məhz bu cür münasibət formasının hökm sürdüyü ailələrdə tərbiyə almışlar. Lakin müasir dövrdə bu cür davranış modeli tədricən özünü inadlaşmaya, höcətləşməyə tərk etməyə başlayıb. Hər iki tərəf də münaqişəyə səbəb olan məsələdə özünün haqlı olduğunu xüsusi bir cəhdlə sübüt etməyə çalışır və nəticədə, xırda bir ailə münaqişəsi böyük bir ailə dramına çevrilir. Nəticədə, həlli mümkün olmayan vəziyyət yaranır. Belə olan halda isə, boşanmaq vəziyyətdən tək çıxış yolu kimi qəbul olunur. Müasir tendensiyaların fərdin şəxsi maraqlarını və eqosunu təmin etməyə çalışan bir insan modeli yaratma cəhdlərinin bu prosesə təsiri az deyil. Bunu apardığımız tədqiqatların nəticələri də gostərir. Evlilik yaşında olan gənc qızlar, gənc əkscinslərindən fərqli olaraq, bir-birini başa düşməyən cütlərin, hətta övlad sahibi olsalar belə, boşanmalarının ən düzgün seçim olduğunu qeyd edirlər. Gənclər arasında boşanmaya qarşı bu cür loyal münasibətin formalaşması belə gələcəkdə boşanmaların arta biləcəyi ehtimalının yüksək olduğunun işarəsi kimi qiymətləndirilə bilər. Boşananlar arasında gənclərin xüsusi çəkisinin 22,6 % olması deyilənləri bir daha təsdiq edir.

Mənəvi və əqli dünyanı öyrənən elm bütün xalqlar üçün aktual və əhəmiyyətli problem olan ailə problemindən kənarda qala bilmir.

Ənənəvi cəmiyyətdən müasir cəmiyyətə keçid olan modern-mənəvi oriyentasiyaların əvəzlənməsindən başlayır və həm ictimai, həm iqtisadi, həm də siyasi xassələrini dəyişdirir. İctimai-mədəni təhlil sosial dəyişiklikləri, mədəni şəraitin nəticəsi olaraq, qiymətləndirir.

Qeyd edək ki, müasir cəmiyyətə keçid prosesində bu qədər əhəmiyyətli dəyişikliklərə məruz qalan hər hansı bir sosial hadisəyə, çətin ki, rast gəlmək olsun. Ailə əhəmiyyətli dərəcədə şəklini dəyişmişdir və bu, təsir edib, edir və bəlkə də bütün cəmiyyətin inkişafında özünü göstərəcəkdir.

S.A.Kravçenkonun fikrincə, ailə çoxşəkillidir, ənənəvi cəmiyyətdə və əhəmiyyətli dərəcədə müasir cəmiyyətdə də davranış stereotipini yenidən hasil edan əsas mədəni-məlumat matrisasıdır.

Müasir dövrdə ailə müəyyən transformasiyalar yaşayır və fərd və ailə münasibətləri dəyişir, bu münasibətlər yeni xassələr qazanır. Bu prizmadan dəyərləndirildikdə, aşağıdakı müddəaların ardıcıl şəkildə inkişaf etdiyinə əsaslanan düşüncə məntiqinin mövcud olduğunu qeyd edə bilərik:

Ailə bir sistemdir;

Şəxsi xüsusiyyətlərdən prinsipial şəkildə fərqlənən xüsusiyyətlərə malikdir;

Bu xüsusiyyətlər dərk olunmazdır və buna görə də, ayrı-ayrı şəxslər üçün müəmmalıdır və yaxud anlaşılmazdır, müasir dünyanın tempi bu hadisəni dəstəkləyir;

Sistem və şəxsi prinsiplərin ziddiyyəti mövcuddur və bu, bir çox ailə münaqişələrinin əsasını təşkil edir;

Sivilizasiyanın əsəri olan müasir meqapolis, ilk növbədə, şəxsiyyətin maraqlarına əsaslanır;

Sistem şəklində olan ailə dəyərləri sivilizasiyanın inkişaf maraqları çərçivəsindən kənarda qalır;

Ayrı-ayrı şəxslər üçün (ailəsiz) "zamanın nəbzini" tutmaq və onun (yəni müasir meqapolisin) tələblərinə cavab vermək daha asandır.

Şəxs meqapolisi seçir, ailəni isə "nəzərə almır.

Fəlsəfə üzrə fəlsəfə doktoru Roide Rzayeva yazır: "İki güclü olanın ittifaqı yaranır: meqapolis və şəxsiyyət, ailə isə - "üçüncüsü gərəksizdir" vəziyyətinə düşür.

Və bu sivilizasiyanın müasir inkişafının nəticəsidirsə, onda o, yəni sivilizasiya kimdir?

Lakin ailə sistem olduğu üçün hər zaman anlaşıqlıq olmayan sistem qanunlarına görə yaşayır. Müasir temp, sürətlə dəyişən dünya bizim gücümüzü öz şəxsi qayğılarımıza yönəldilərək, anlaşılmazlığı daha da artırır. Və ailə - sistem daha da anlaşılmaz olmağa başlayır, bu da, o deməkdir ki, bir az da yad olmağ başlayır və hətta bəziləri üçün ağır yükə çevrilir. Beləliklə, bizim şəxsi, bizə müəyyən dərəcəyə qədər aydın olan prinsiplərimiz sistem prinsipləri ilə dərk edilməyən münaqişəyə girir. Sistem və şəxsi prinsiplərin təzadı - bir çox ailə fəciələrinin səbəbidir.

Müasir meqapolis bizim eqo yönümlü sivilizasiyanın qanuni övladı kimi, "icma və ailə" dəyərlərinə müqabil olaraq, bütün inkişafı ilə şəxsiyyətə və onun dəyərlərinə (karyera, güc, şan-şöhrət və s.) yönəlmişdir. Təkbaşına bir insan üçün müasir meqapolisə uyğunlaşmaq daha asandır və o da, yeni meqapolis də şəxsə yönəlmişdir. Sistem dəyərləri isə meqapolis dəyərlərinə çətinliklə yerləşdirilir və onlarla əlaqələndirilir, beləliklə də, sistem dəyərlərini "tanımaq" və onları qəbul etmək, ailələrimizin belə üzvlərinin şəxsi dəyərləri ilə barışmaq çətindir. Zəmanəmizdə hər şey o qədər tez dəyişir ki, azad, mobil şəxsiyyət üçün (bu isə, əsasən, ailəsiz şəxsiyyətdir) geridə qalmamaq, həyatın nəbzini tutmaq daha asandır. Ailə öz fərqli daxili temperamenti, hətta müqayisəli passivliyi ilə, təbii olaraq, çatdırmır və bir çox müasirlərimiz tərəfindən arxaika, yük və s. kimi qavranılır. Və müasir meqapolisin tələbləri, cazibəsi və təsirlərindən azad olmayan şəxsiyyətlər ailədə sıxılırlar və onlar əksər hallarda (və hər zaman da dərk edərək deyil) meqapolis və ailə arasında seçimi birincinin lehinə edirlər". Ailə isə sistem olaraq, dəyərləri və qanunları ilə "iki od arasında" qalır - iki öz məqsəd və dəyərlərinin təzahürü və dərk olunması ilə güclü olduqları üçün bərabər partnyorlar kimi bir-birini seçən şəxsiyyət və meqapolis arasında.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## İsveçdə nasistlərin zorla aldığı tablo sahibinə qaytarılıb



İsveçdə ötən əsrin 30-cu illərində nasistlərin zorla aldığı tablo sahibinə qaytarılıb. AZƏRTAC İsveç KİV-lərinə istinadla xəbər verir ki, Stokholmda yerləşən Müasir İncəsənət Muzeyi avstriyalı rəssam Oskar Kokoşkanın "Markiz Jozef de Monteski-Fezenak" rəsm əsərinin Alfred Flextxaymın qalereyasının sahibinin varislərinə qaytarılması barədə məlumat yayıb.

Tablo ötən əsrin 30-cu illərində nasist hakimiyyəti tərəfindən kolleksiyaçıdan zorla alınıbmış. Uzun illər İsveç Milli Muzeyində nümayiş etdirilən rəsm əsəri sonralar Müasir İncəsənət Muzeyinə verilib.

Müasir İncəsənət Muzeyinin rəhbəri Daniel Birnbaum yerli KİV-lərə müsahibəsində bildirib ki, sözügedən qərar narahatlığa son qoyub. O, əlavə edib ki, tablonun sahiblərini müəyyənləşdirmək asan olmayıb, çünki ötən əsrin 30-cu illərində müharibənin yaratdığı xaos zamanı sənədləşmə aparılmayıb. Tablonun Flextxaym qalereyasında nümayiş etdirilməsi isə onun sahibi haqqında sübut sayılmırdı. "Tablonun bir neçə potensial sahibi var idi, lakin biz onların arasından əsl sahibi müəyyən edə bildik. İsveç hökuməti, habelə bizim muzey üçün bu cür problemli mənşəyə malik əsərlərin olmaması çox mühümdür. Çox şadıq ki, Kokoşkanın rəsm əsəri həqiqi sahibinə qaytarılır", - deyə Daniel Birnbaum sözlərinə yekun vurub.

Qeyd edək ki, Alfred Flextxaymın qohumları uzun müddət bu əsər üzərində hüquqlarını sübut etməyə çalışıblar. İndi qəbul edilən qərardan sonra tablo tezliklə onlara qaytarılacaq.

## Tut bəkməzinin faydalı xüsusiyyətləri



Tut bəkməzinin faydası və tərkibinin bir çox qiymətli komponentlərlə zəngin olduğu məlumdur. Təkcə bir faktı göstərmək kifayətdir ki, onun tərkibində olan dəmirin miqdarı balda olduğundan səkkiz dəfə çoxdur.

AZƏRTAC həkim və mütəxəssislərə istinadla xəbər verir ki, qan azlığı, mineral çatışmazlığı və saç tökülməsi zamanı doşabdan istifadə etmək daha səmərəli nəticələr verir.

Bəkməz mineral qaynağıdır. Bənizi solmuş, qan azlığı olanların gündə üç dəfə yeməkdən əvvəl bir xörək qaşığı bəkməz içməsi məsləhətdir. Bir xörək qaşığı tut bəkməzini içmək bir stəkan tut yeməyə bərabərdir. Onu da qeyd etmək lazımdır ki, tutu meyvə halında yemək daha faydalıdır, çünki bişəndə onun tərkibində olan bəzi vitaminlər parçalanır.

Tut doşabı çox istifadə olunur və bəkməzlərin şahı hesab edilir. O, ana südünün artırılmasında, böyrək və sidik yollarında yaranan həm daş, həm də iltihabi xəstəliklərin müalicəsində mühüm rol oynayır. Bundan əlavə bəkməz əsəbləri sakitləşdirir, uşaqlarda beyin inkişafını sürətləndirir, mədə-bağırsaq yaraları, eləcə də ağciyər problemləri zamanı çox faydalı təsir göstərir. Bəkməzi həm su ilə qarışdıraraq, həm də gündə üç dəfə yeməkdən əvvəl bir xörək qaşığı içmək olar. Acqarına 100 qram doşab içmək də zərərli deyil.

Bəzi xüsusiyyətlərinə görə bəkməz meyvələrdən üstündür. Misal üçün, tut cəmi 15-20 gün yeyilir, amma bu meyvənin bəkməzini bütün ilboyu istifadə etmək olar. Doşab qanazlığı, soyuqdəymə, bronxit, qaraciyər xəstəlikləri, halsızlıq, immunitet zəifliyi, sümük əyilmələri və ərimələrində də istifadə olunur. Tut bəkməzində sink çox olduğunda prostat problemi olanlar üçün də çox faydalıdır. Bəkməz inkişafda olan uşaqlar üçün də mükəmməl qidadır, çünki onların minerallara daha çox ehtiyacı vardır. Doşab qan damarlarının içini yağlardan təmizləyir, bununla da ürək və qaraciyərin daha yaxşı işləməsinə şərait yaradır. Ağız və boğaz yaralarında onu ağızda bir müddət saxlayandan sonra udurlar.

Çox geniş yayılan üzüm doşabı enerji mənbəyidir. O, qaraciyərin fəaliyyətini yaxşılaşdırır, dalaq böyüməsi zamanı faydalı təsir göstərir. Şəkərli diabet xəstələri bu qidadan çox az istifadə etməlidirlər, onlara turş nar bəkməzi daha faydalı ola bilər. Əncir doşabı ürəyi zəif olanlar, tez-tez qıcolmalar, öskürək, babasildən əziyyət çəkənlər üçün faydalıdır. Əncir bəkməzi ürəyin döyünmə gücünü artırır, dəridə səpgi və ləkələri aradan qaldırmağa kömək edir.

## Azərbaycanın güləşçisi III Dünya Köçəri Oyunlarında qızıl medal qazanıb



Qırğızıstanda təşkil edilən III Dünya Köçəri Oyunları çərçivəsində Azərbaycanın milli güləş növü üzrə yarışlar keçirilib. SİA-nın məlumatına görə, bu yarışlarda idmançılar meydana Azərbaycanın cəngi rəqsinin sədaları altında dəvət olunublar.



Dünən yarışda mütləq çəki dərəcəsində çıxış edən azərbaycanlı güləşçi Roman Bəkirov ilk görüşündə özbəkistanlı rəqibinə qalib gəlib. O, növbəti mərhələdə qazaxıstanlı güləşçi ilə görüşüb. İdmançımız bu rəqibindən də üstün olub və yarımfinala çıxıb. R.Bəkirov yarımfinalda iranlı güləşçi ilə qarşılaşmada məğlub olub. O, bürünc medal uğrunda Çin idmançısı ilə üz-üzə gəlib. İlk xalı R.Bəkirov qazansa da, sonda daha ağır çəkisi olan rəqib qalib gəlib. 60 kq çəki dərəcəsində çıxış edən dünya çempionumuz Cəlal Süleymanov isə ilk görüşündə özbəkistanlı idmançı ilə qarşılaşıb. O, Nurməhəmməd Abdullayevi məğlub edərək yarımfinala çıxıb. İdmançımız yarımfinalda qazaxıstanlı güləşçi ilə üz-üzə gəlib. C.Süleymanov rəqibindən üstün olaraq finala vəsiqə qazanıb. Finalda yerli güləşçi üzərində tam üstünlüklə qalib gələn idmançımız III Dünya Köçəri Oyunlarının qızıl medalını qazanıb. Qeyd edək ki, bu, Azərbaycanın III Dünya Köçəri Oyunlarında ilk qızıl medalıdır. İdmançılarımızı indiyədək 14 medal qazanıblar. Bunlardan 1-i qızıl, 5-i gümüş, 8-i isə bürünc əyarlıdır. Onu da nəzərinizə çatdıraq ki, yarışları III Dünya Köçəri Oyunlarına Azərbaycandan qonaq kimi dəvət olunan Milli Məclisin deputatı Hikmət Babaoğlu, "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid də izləyib.



## Azərbaycan damaçısı dünya çempionu olub




Polşanın Mlava şəhərində xüsusi qrup insanlar arasında keçirilən 64 xanalı dama üzrə dünya çempionatına yekun vurulub. AZƏRTAC xəbər verir ki, "Neftçi İdman Klubu"nun təmsilçisi, Azərbaycan və Avropa çempionu, beynəlxalq usta Pərviz Həsənov yarışda əzmkarlıq nümayiş etdirərək böyük uğura imza atıb. İdmançımız İsveçrə sistemi üzrə keçirilən mötəbər turnirdə 7 tura 13 xal toplayaraq (6 qələbə, 1 heç-heçə) dünya çempionatının qızıl medalına sahib olub.

## Berluskoni yeni klub almağa hazırlaşır

İtaliyanın "Milan" futbol klubunun sabiq prezidenti və vitse-prezidenti Silvio Berluskoni və Adriano Qalliani yeni klub almaq üçün danışıqlara başlayıblar. TASS informasiya agentliyi xəbər verir ki, danışıqlar İtaliyanın "C" Seriyasında çıxış edən "Montsa" klubunun alınması ətrafında aparılır.

Silvio Berluskoni 1986-2017-ci illərdə "Milan" klubunun sahibi olub. Onun prezidentliyi dövründə "Milan" klubu səkkiz dəfə İtaliya çempionatının və 5 dəfə isə UEFA Çempionlar Liqasının kubokunu qazanıb. Ötən il Silvio Berluskoni "Milan" klubunu 860 milyon dollara çinli iş adamına Li Yunxuna satıb. Xatırladaq ki, dünyada ən uğurlu klub prezidentləri siyahısında qərarlaşan sabiq Baş nazir apreldə "Milan"ı geri alacağını demişdi.

## "Fənərbaxça" oynamayan futbolçuya 2,2 milyon avro maaş verməlidir

"Fənərbaxça" rəhbərliyi kamerunlu qapıçı Karlos Kameni ilə olan müqaviləyə xitam vermək istəyir. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, yay transfer dönəmində futbolçunu başqa bir kluba satmayan "Fənərbaxça" K.Kameniyə oynamadığı halda maaş verməli olacaq. Belə ki, futbolçuya heyətdə yer verilməsə də o, komandadan ayrılmaq istəmir. 2020-ci ilə qədər bağlanmış müqaviləyə görə isə, klub sözügedən fubolçuya illik 2,2 milyon avro maaş verməlidir. Bu isə, Harun Tekin və Volkan Dəmirəlin illik maaşından daha çoxdur. Adıçəkilən futbolçular illik 1,5 milyon avro maaş alırlar.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompyuter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500